RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 24 (9191) 3 FEVRAL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Strateji tərəfdaşlıqdan müasirliyə, inkişafa və enerji təhlükəsizliyinə doğru

◆ Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri

Rəsmi qarşılanma mərasimi → 2

Prezidentlərin təkbətək görüşü → 2

Geniş tərkibdə görüş → 3

Prezidentlərin mətbuata bəyanatları → 3

Ali qonağın şərəfinə → 4



## Azərbaycan “Cənub qaz dəhlizi” vasitəsilə Avropa ölkələrinin enerji təminatına əsaslı töhfələr verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirakına görə ABŞ nümayəndə heyətinə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı ötənilki toplantıda qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi baxımından yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Azərbaycan Prezidenti hazırda enerji diplomatiyamız qarşısında yeni vəzifə və tapşırıqların müəyyən edildiyini diqqətə çatdıraraq "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında səmərəli müzakirələrin aparılacağına əminliyini ifadə etdi.



Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin qoyduğu bünövrənin bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığını vurğuladı. Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid sektorunda, eləcə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bu xüsusda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş"in icrası üzrə Rəhbər Komitənin ilk iclasının da keçirilməsinin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev hər iki tədbirin bir-birini tamamladığını dedi.

Xanım Laura Loxman Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasının əhəmiyyətini vurğuladı və Azərbaycanın "Cənub qaz dəhlizi" vasitəsilə Avropa ölkələrinin enerji təminatına əsaslı töhfələr verdiyini qeyd etdi.

Qonaq "Cənub qaz dəhlizi"nin yaratdığı təməllər əsasında bərpaolunan enerji, o cümlədən yaşıl hidrogen sahəsində yeni əməkdaşlıq perspektivlərinin meydana çıxdığını qeyd etdi və bu layihələrin həyata keçirilməsində ölkəmizin vacib rol oynadığını bildirdi.

O, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında sazişin imzalanması münasibətilə təbriklərini çatdırdı.

Görüşdə ABŞ-nin "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirildi və ABŞ-lə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

Söhbət zamanı nümayəndə heyəti ölkəmizin Tehrandakı səfirliyinə qarşı törədilmiş terror hadisəsi nəticəsində Azərbaycan vətəndaşının həlak olması ilə əlaqədar ABŞ-nin başsağlığını ifadə etdi.

## “Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində...”

### Prezident İlham Əliyev Azərbaycan gənclərini təbrik etdi

**2 Fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə**

Hörmətli gənclər!

Sizi 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhvali-ruhiyyə və gələcək işlərinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərimizə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirildiyi günün ölkəmizdə 1997-ci ildən etibarən Gənclər Günü kimi qeyd olunması ənənəsi bir daha təsdiq edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin və insan kapitalının məqsədyönlü inkişafının əsas istiqamətlərindəndir. Ötən müddətdə apardığımız işlər gənclərin maraqlarının və ahəngdar inkişafının təmin olunması üçün lazımi şərait yaradılmasını sürətləndirmiş, onların təşkilatlanmasında və ictimai-siyasi fəallığının artmasında əhəmiyyətli rol oynamışdır.

Göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda milli məfkurəyə sadiq və dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan bir nəsil yetişmişdir. Gənclərimiz bu gün həyatımızın bütün sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi gücünün, hərbi qüdrətinin artması və siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işində qüvvə və bacarığını əsirgəmir, zəngin mədəni irsimizin qorunub saxlanması və təbliği yolunda mühüm addımlar atırlar.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Əminəm ki, Azərbaycan gəncliyi tariximizin bu yeni dövründə də ölkəmizin gələcək inkişafına layiqli töhfələr verəcək, yeni-yeni nailiyyətləri ilə bizi sevindirəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2023-cü il*




## “Terrorizmə qarşı ən kəskin şəkildə mübarizəni labüd hesab edirik”

### İlham Əliyev pakistanlı həmkarına başsağlığı verdi

**Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə**

Hörmətli cənab Prezident!

Peşəvər şəhərindəki məsciddə törədilmiş partlayış nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı ən kəskin şəkildə mübarizəni labüd hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2023-cü il*

**Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri**

# Strateji tərəfdaşlıqdan müasirliyə, inkişafa və enerji təhlükəsizliyinə doğru

## Rəsmi qarşılanma mərasimi







**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Rumıniya Prezidenti Klaus Yohannisin fevralın 2-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rumıniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Klaus Yohannisi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Rumıniya Prezidentinə raport verdi.

Prezident Klaus Yohannis Azərbaycan əsgərlərini salamladı.

Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Rumıniyanın və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Rumıniya Prezidentinə, Rumıniya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Klaus Yohannisin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



## Prezidentlərin təkbətək görüşü



Fevralın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə təkbətək görüşü olub.

## Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri

# Strateji tərəfdaşlıqdan müasirliyə, inkişafa və enerji təhlükəsizliyinə doğru

## Geniş tərkibdə görüş

**Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Klaus Yohannisin geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Cənab Prezident, hörmətli Rumıniya nümayəndə heyətinin üzvləri.

Bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz indicə cənab Prezidentlə ikitərəfli gündəliyimizin geniş əhatəli məsələləri ilə bağlı çox yaxşı müzakirələr apardıq və bir daha əlaqələrimizin strateji əhəmiyyətini təsdiqlədik. Strateji tərəfdaşlar olaraq biz irəliyə doğru gedirik. Mənim Buxarestə səfərimlə bağlı yaxşı xatirələrim var və sözsüz ki, Buxarestdə imzalanmış sənəd həqiqətən də bizim qarşımızda yeni perspektivlər açır. Biz gələcək addımlarımızı geniş şəkildə müzakirə etdik və indi nümayəndə heyətləri üzvlərinin iştirakı ilə bunu davam etdirəcəyik. Eyni zamanda biz artıq təbii qazın nəqli məsələsində tərəfdaş olmuşuq və bu da bizim əməkdaşlığımızda mühüm mərhələdir. Lakin, birmənalı olaraq, biz əməkdaşlığımızın daha geniş miqyasını arzu edirik, nəinki enerji, o cümlədən ticari işbirliyimizlə bağlı məsələləri də əhatə etməsini istəyirik.



Birgə iqtisadi komissiya ötən il görüşüb və bu il görüşəcək. Beləliklə, biz xüsusilə enerji gündəliyimizlə bağlı əməkdaşlıq üçün geniş perspektivləri nəzərə alaraq komissiyanın işini intensivləşdirəcəyik. Bütün digər sahələrdə ölkələrimiz arasındakı əlaqələr çox yaxşıdır. Əlbəttə ki, enerji layihələri tərəfdaşlığımızı gücləndirəcək.

Cənab Prezident və nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Ölkəmizə səfərinizə görə təşəkkür edirəm. Sizi Azərbaycanda qarşılamaq böyük şərəfdir. Əminəm ki, səfər bizim gələcək əməkdaşlıq planlarımız üçün çox əhəmiyyətli olacaq. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Rumıniya Prezidenti **Klaus Yohannis** dedi:

- Çox sağ olun, cənab Prezident.

Hörmətli nümayəndə heyətlərinin üzvləri.

Həqiqətən bizim, demək olar ki, uzun müzakirəmiz oldu. Lakin hesab edirəm ki, bu, mütləq şəkildə zəruri idi.

Çünki hər ikimiz tərəfdaşlığımızı daha da gücləndirmək əzmindəyik və daha yaxşı nəticələr əldə etmək istəyirik. Müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi apardıq və mediaya təşəkkürümüzü bildirdikdən sonra mən bu məsələlərin bəzilərini daha dərindən nəzərdən keçirə biləcəyəm.

Heyətlərimizlə müzakirə etmək istədiyimiz iki və ya üç təfərrüatı nəzərdə tuturam.

## Prezidentlərin mətbuata bəyanatları

**Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlamaq istərdim, Azərbaycana xoş gəlmisiniz. Biz keçən ay Sizinlə Buxarestdə görüşmüşdük və şadam ki, bir aydan sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, onu göstərir ki, ölkələrimiz arasında yüksəksəviyyəli siyasi dialoq çox fəaldır və müzakirə olunan məsələlər hər iki ölkənin maraqlarına cavab verir.

Rumıniya və Azərbaycan uzun illər ərzində əlaqələrini strateji tərəfdaşlıq əsasında inkişaf etdirirlər. Strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bu gün müzakirə olunan və həll etdiyimiz məsələlər, doğrudan da, strateji əhəmiyyət daşıyır. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu bir daha göstərir.

Eyni zamanda ticari-iqtisadi sahələrdə də nəticələr var. Ticarət dövriyyəsi iki dəfədən çox artsa da, hələ ki istədiyimizə uyğun deyil. Çünki ticarət dövriyyəmizin böyük hissəsini Azərbaycandan Rumıniyaya ixrac edilən xam neft təşkil edir. Biz ticarət dövriyyəmizin şaxələndirilməsi üçün əlavə addımlar atacağıq və ümid edirəm ki, hökumətlərarası komissiyanın fəaliyyəti məhz bu məqsədi güdəcək. Komissiya keçən il Bakıda görüşüb, bu il isə Buxarestdə görüşəcək. Beləliklə, ticari-iqtisadi sahədə də yaxşı nəticələr ola bilər.

Energetika, əlbəttə ki, təkcə Rumıniya-Azərbaycan əlaqələrinin yox, bütövlükdə dünya gündəliyinin mərkəzində olan məsələdir. Uzun illər ərzində Azərbaycanın neft şirkəti SOCAR Rumıniyada fəaliyyət göstərir, 70-dən çox yanacaqdoldurma stansiyası və bir neçə yanacaq deposu var. Yəni SOCAR-ın Rumıniyada fəaliyyətinin artıq çox gözəl tarixçəsi vardır.

İndi isə bizim əməkdaşlığımız yeni mərhələyə çıxır. Buxarestdə olarkən təbii qazın Rumıniyaya çatdırılmasına dair saziş imzalanmışdır. Beləliklə, Azərbaycan qazı Avropa məkanında yeni ünvana çatacaq və bununla paralel olaraq, Rumıniya imkanlarından istifadə edərək digər Avropa ölkələrinə Azərbaycan qazı nəql ediləcəkdir.

Biz isə iki il bundan əvvəl "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP layihəsini uğurla icra etdik və Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrildik. Bunu Avropa İttifaqına rəhbərlik edən şəxslər qeyd edirlər. Keçən il Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış təbii qaz üzrə strateji Tərəfdaşlıq Memorandumu bunu bir daha göstərir. Biz öz qaz ixracatımızı sürətlə artırırıq və ilk növbədə Avropa məkanına.

Hörmətli qonağımız sabah Azərbaycanda keçiriləcək "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının açılış mərasimində iştirak edəcəkdir. Prezident Yohannisin açılışda iştirakı bu tədbirin böyük əhəmiyyətindən xəbər verir. Əlbəttə, Buxarestdə bizim əsas tədbirimiz "yaşıl enerji" ilə bağlı idi. Bu istiqamətdə də çox önəmli addım atılmışdır və sabah "yaşıl enerji" üzrə birinci Məşvərət Şurası keçiriləcək. Bu, çox strateji bir layihədir, böyük sərmayə tələb edən layihədir, bir neçə ölkəni, iki dənizi birləşdirən bir layihədir. Əlbəttə, ümid edirik ki, sabahkı birinci rəhbər komitənin toplantısı gələcək birgə fəaliyyət üçün bir yol xəritəsini də təklif edəcək.

Ardı 4-cü səh.

## Rumınıya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri

# Strateji tərəfdaşlıqdan müasirliyə, inkişafa və enerji təhlükəsizliyinə doğru





# Prezidentlərin mətbuata bəyanatları

*Əvvəli 3-cü səh.*

Bir sözlə, biz çox önəmli strateji tərəfdaşlıq platformuna əsaslanaraq bu gün müasirliyə doğru, inkişafa doğru, enerji təhlükəsizliyinə doğru çox önəmli addım atmış olduq. Eyni zamanda digər sahələr də prioritet təşkil edə bilər, o cümlədən nəqliyyat sahəsi. Bakı və Konstansa limanları arasındakı əməkdaşlığın dərinləşdirilməsi üçün çox yaxşı imkanlar var. Əminəm ki, həm qaz, həm "yaşıl enerji" dəhlizləri, o cümlədən nəqliyyat sahəsində də gözəl nəticələrə gətirib çıxaracaqdır.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Sizə "xoş gəlmisiniz" deyirəm.

❖ ❖ ❖

Sonra Rumıniya Prezidenti bəyanatla çıxış edib.

## Prezident Klaus Yohannisin bəyanatı

- Cənab Prezident, təşəkkür edirəm.

Bu gün burada olmağımdan böyük şərəf duyuram. Bu, mənim ölkənizə ilk rəsmi səfərimdir. Cənubi Qafqaz bölgəsi həm Rumıniya, həm Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Dəvətə və qonaqpərvərliyə görə cənab Prezident Əliyevə təşəkkür edirəm.

Azərbaycan Cənubi Qafqaz bölgəsində ilk ölkədir ki, Rumıniya onunla əməkdaşlığını strateji tərəfdaşlıq səviyyəsinə qaldırıb, bu, 2009-cu ilə təsadüf edir. Bununla yanaşı, bizim ölkəmiz Avropa İttifaqının ilk üzvüdür ki, Azərbaycanla strateji tərəfdaşlıq haqqında belə bir sənəd imzalayıbdır.

Bu gün cənab Prezident İlham Əliyevlə biz mühüm siyasi məsləhətləşmələr apardıq. Sabah mən cənab Prezidentlə birlikdə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirak edəcəyəm.

Rumıniya ilə Azərbaycan 30 il ərzində gözəl diplomatik və siyasi münasibətlərə malikdir. 2022-ci ildə bunun çox güclü bir dinamikası baş verdi və cənab Prezident Buxarestə səfər etdi. Həmin səfər zamanı biz dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair saziş imzaladıq.

Biz Rumıniya olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirməyə və mühüm strateji əhəmiyyətə malik regional layihələrin icrasına hazırıq. Biz enerji, ticarət, sərmayə qoyuluşu, rəqəmsallaşma və kənd təsərrüfatı sahələrində əməkdaşlığa hazırıq.

Mən cənab Prezidentə təşəkkür edirəm ki, Azərbaycan yanvar ayından etibarən Rumıniyaya əlavə qaz həcminin nəqlinə başlayıb. Sabah hər iki ölkənin dövlət neft şirkəti "Romqaz" və SOCAR yeni sazişə imza atacaqlar. Həmin sazişə əsasən, 2023-2024-cü illərdə bizim ölkəyə əlavə qaz nəql ediləcək. Hər ikisi - "Cənub qaz dəhlizi", o cümlədən Azərbaycanda bərpaolunan enerji resurslarından istehsal edilmiş elektrik enerjinin nəqli üçün çəkiləcək gələcək dənizaltı kabel və nəhayət, Avropa Komissiyasının dəstəklədiyi layihələr Avropa İttifaqında enerji təhlükəsizliyinin təmin edilməsinə nəzərəçarpan töhfə verəcək. Bu məsələləri biz cənab Prezident Əliyevlə müzakirə etdik.

Rəqəmsallaşma layihələri də bizim üçün maraq kəsb edir. Rumıniya ilə Azərbaycan bu əməkdaşlığı və strateji təşəbbüsləri Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində inkişaf etdirmək niyyətindədir. Biz bunu cənab Prezidentlə Buxarestdə də müzakirə etmişik.

Cənab Prezident, Rumıniya Azərbaycanın səmimi və əsl dostudur. Rumıniyanın mövqeyi hər zaman bəlli olub. Biz ölkələrin ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəkləmişik.

Sonuncu məsələlərdən biri də Rusiyanın Ukraynaya qarşı təcavüzünü və Qara dəniz hövzəsi regionundakı vəziyyəti cənab Əliyevlə müzakirə etdik. Belə bir mürəkkəb vəziyyətdə həmrəyliyin vacibliyini vurğuladıq və bu məsələlərdə Azərbaycanın da mövqeyini yüksək qiymətləndirdik. Bununla da regional əməkdaşlıq, mənbə və marşrutların şaxələndirilməsi "Cənub qaz dəhlizi" kimi layihələrin təməl prinsipinə əsaslanır. Biz Azərbaycanın etibarlı tərəfdaş olaraq belə layihələri gələcəkdə də irəli sürəcəyinə əminik.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Ali qonağın şərəfinə



Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rumıniya Prezidenti Klaus Yohannisin şərəfinə rəsmi ziyafət verilib.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Rumıniya Prezidenti Klaus Yohannis fevralın 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Rumıniyanın Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rumıniya Prezidenti Klaus Yohannisi hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycanla Türkiyənin qardaşlıq və dostluq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək



**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 2-də Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə inkişafı qeyd edilərək vurğulanıb ki, bu gün dünya miqyasında bir-birinə bu qədər yaxın olan ölkələr yoxdur. Spiker Sahibə Qafarova xüsusilə Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin əməkdaşlığımızın durmadan genişlənməsində mühüm rol oynadığını diqqətə çatdırıb. O əminliyini ifadə edib ki, qardaşlıq və dostluq münasibətlərimiz bundan sonra da uğurlu inkişafını davam etdirəcək.

Milli Məclisin Sədri parlamentlərimiz arasında əlaqələrin də dostluq və qardaşlıq münasibətlərimizin ruhuna uyğun inkişaf etdiyini qeyd edib. Bildirib ki, qanunverici orqanlarımız həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir. O, deputatlarımızın beynəlxalq platformalardan da uğurlu istifadə edərək bir-birimizin mövqeyinə ardıcıl dəstək göstərdiyini diqqətə çatdırıb. Görüşdə qanunverici orqanlarımız arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti barədə də fikirlər səsləndirilib.

Milli Məclisin Sədri həmçinin hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi bərpa və quruculuq işləri haqqında da məlumat verib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziya Nümayəndələr Palatasının Azərbaycanla parlamentlərarası dostluq qrupu ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 2-də İndoneziya Respublikası Nümayəndələr Palatasının ölkəmizdə səfərdə olan İndoneziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Muhammad İqbalın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova Azərbaycan və İndoneziya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətinin razılıq doğurduğunu bildirib. Parlamentin sədri ötən il Azərbaycanla İndoneziya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu diqqətə çatdırıb.

Sahibə Qafarova ölkələrimizin BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda yaxın əməkdaşlığından danışıb, İndoneziyanın bu təşkilatlarda həmişə Azərbaycanı dəstəkləməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini qeyd edib.

Dövlətlərimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolunu vurğulayan Milli Məclisin Sədri qanunvericilik orqanlarının səmərəli əməkdaşlığının daha da genişləndirilməsinin, həmçinin dostluq qrupları səviyyəsində əlaqələrin əhəmiyyətindən bəhs edib. Milli Məclisin Sədri bildirib ki, deputatlarımız bir sıra beynəlxalq təşkilatların parlament qurumlarında səmərəli əməkdaşlıq edirlər. Spiker Sahibə Qafarova xüsusilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığı qeyd edərək İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharaninin Parlament Şəbəkəsinin Madriddə keçirilən təsis konfransında, həmçinin İndoneziya nümayəndə heyətinin bu təşkilatın ötən ilin 30 iyun - 1 iyul tarixlərində keçirilmiş Bakı Konfransında iştirakını yüksək qiymətləndirib. O eyni zamanda Milli Məclisin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv qəbul olunmasını xatırladaraq bu təşkilat çərçivəsində də əlaqələrin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Sahibə Qafarova bir neçə gün əvvəl Əlcəzairdə İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Konfransının 17-ci sessiyası çərçivəsində İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani ilə görüşündən, iki ölkənin parlamentlərarası münasibətlərinin inkişaf perspektivlərindən danışıb.

Milli Məclisin Sədri 44 günlük Vətən müharibəsində ölkəmizin əldə etdiyi şanlı Qələbə, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Spiker diqqətə çatdırıb ki, Azərbaycan Ermənistana beynəlxalq hüququn prinsipləri əsasında sülh sazişinin imzalanmasını təklif etsə də, Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir və sülh müqaviləsini imzalamaqdan boyun qaçırır.

Səmimi sözlər üçün təşəkkürünü bildirən İndoneziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Muhammad İqbal nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharaninin salamlarını Milli Məclisin Sədri Sahibə Qafarovaya çatdıraraq bir neçə ay əvvəl İndoneziyada keçirilən "Böyük İyirmilik" ölkələrinin Parlament Sədrlərinin 8-ci Sammitində iştirak etdiyinə görə ona təşəkkürünü bildirib. Dostluq qrupunun rəhbəri, İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani ilə Milli Məclisin Sədri Sahibə Qafarova arasında sıx əlaqələrin parlamentlərarası münasibətlərin inkişafında mühüm rol oynayacağını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev, qrupun üzvləri Hikmət Məmmədov, Elman Nəsirov, Əliabbas Salahzadə, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Azərbaycanla təhdidlə danışmaq olmaz

## İran törətdiyi terrora görə cavab verəcək

**İranın Azərbaycana qarşı siyasətinin səmimi olmadığı, ortaq dəyərlərə söykənmədiyi çoxdan məlum idi. Öncə ondan başlayaq ki, özünü müsəlman dünyasının təəssübkeşi kimi göstərən İran Azərbaycanın torpaqlarının işğal edildiyi vaxt onun qarşısını almaq üçün bir addım belə atmayıbdı. İkincisi, torpaqlarımızın işğalda olduğu illərdə Ermənistanla geniş şəkildə siyasi-iqtisadi əməkdaşlıq edən az ölkələrdən biri məhz İran idi. Bu baxımdan ermənilərin İranı özləri üçün nəfəslik adlandırmaları təsadüfi deyil.**

### İranın molla rejiminin niyyəti həmişə gözündə qalıb

Bu bir tarixi həqiqətdir ki, Azərbaycan cənub qonşusu ilə əlaqələrə həmişə diqqət və həssaslıqla yanaşıb, münasibətlərin inkişafına çalışıb. Ölkəmiz ikitərəfli əlaqələrə azacıq da olsa kölgə salacaq bir addım belə atmayıb. Məlumdur ki, İranda molla rejiminin hakimiyyətindən sonra Tehranın istər müsəlman dünyası, istərsə də Qərb ölkələri ilə münasibətləri gərgin olub. Təbii ki, bunun da səbəbkarı elə molla rejiminin özüdür. İslam dünyasında məzhəb ayrı-seçkiliyinin, dini bölücülüyün geniş şəkildə baş qaldırması, bəzi müsəlman ölkələrində qanlı qarşıdurmaların yaranması məhz İranın yürütdüyü siyasətin nəticəsidir. Elə bu cür siyasətinə görə də İranın həm islam, həm Qərb dünyası ilə münasibətləri gərgin olub və bu indi də davam edir.

Bütün bunlara rəğmən Azərbaycan beynəlxalq müstəvidə İranın milli maraqlarına zidd olan təşəbbüslərə və siyasi qarşıdurmalara qoşulmayıb. Xüsusən İranın nüvə proqramı ilə bağlı müzakirələrdə Azərbaycan bu ölkəyə qarşı sanksiyaları dəstəkləməyib. Eyni zamanda Azərbaycan heç vaxt İranın daxili işlərinə də qarışmamış, bu ölkədə əmin-amanlığın olmasını arzulayıb.



Lakin İran tərəfi Azərbaycana qarşı daim məqsədli şəkildə qərəzli və riyakar siyasət yürüdüb, münasibətlərdə səmimi olmadığını hər zaman büruzə verib. Ölkəmizin əlaqələrdə mehriban qonşuluq prinsiplərini rəhbər tutmasına baxmayaraq, İranın siyasi, dini və hərbi dairələri Azərbaycan dövlətinə qarşı münasibətdə heç də səmimi olmadıqlarını zaman-zaman ən müxtəlif səviyyələrdə büruzə veriblər.

İran mətbuatında türk xalqları daim təhqir edilib, televiziya kanallarında gecə-gündüz müstəqil, dünyəvi və demokratik Azərbaycan dövlətçiliyinə qarşı "mübarizə aparılıb". İran rəsmiləri bunu ölkə mətbuatının guya müstəqil olması ilə əlaqələndirsələr də, İranda söz azadlığının olmadığı bütün dünyaya bəllidir. Bu ölkə davamlı şəkildə Azərbaycanın daxili işlərinə qarışmaq üçün müxtəlif cəhdlər göstərib. Azərbaycanda guya dini azadlıqların və islami dəyərlərin boğulduğunu iddia edən İranın müxtəlif dairələri respublikamızın ərazisində antikonstitusion və dünyəvi dövlətçilik əleyhinə çirkin planlar həyata keçirməyə cəhd etsə də, niyyəti həmişə gözündə qalıb.

### Tehran islami dəyərləri təhqir edən Ermənistanın yanında yer aldı

Azərbaycanın Vətən müharibəsindəki qələbəsi dostlarımızı sevindirdi, düşmənlərimizin bağrına isə xəncər kimi saplandı. Bu qələbə müstəqil Azərbaycan dövlətçiliyi ilə barışa bilməyən İranın da maskasını cırdı. Torpaqlarımızın, Azərbaycan-İran sərhədinin işğal altında olduğu dönəmdə bircə dəfə də olsun Ermənistana etirazını bildirməyən İran 44 günlük müharibədən sonra birdən-birə regionda sərhədlərin dəyişdirilməsinə yol verməyəcəyini bəyan etdi. Ən qəribəsi də odur ki, Qarabağ və Şərqi Zəngəzurda islam abidələrinin, məscidlərin ermənilər tərəfindən dağıdılmasına və murdarlanmasına münasibətini bildirməyən İran Ermənistanın təhlükəsizliyini özünün milli prioriteti elan etdi.

Məsələyə bu prizmadan yanaşdıqda görünür ki, Azərbaycanın öz torpaqlarını azad etməsi İranı yaman narahat edir. Bu ölkənin molla rejimi Azərbaycanın qətiyyəti və iradəsi ilə regionda yaranan yeni reallıqları, türk dünyası arasında yaranacaq bağlantıları həzm edə bilmir. Tehranın İrəvanla son dövrlər daha da yaxınlaşmasını, Qafanda konsulluq açmasını, Azərbaycanla sərhəddə hərbi təlimlər keçirərək əzələ nümayiş etdirməsini, Ermənistana silah satmasını başqa cür izah etmək mümkün deyil. Məscidlərimizi murdarlayan ermənilərin İranda məscidə aparılması isə, sadəcə, riyakarlıqdır. Bir müsəlman dövlətinin belə bir siyasət yürütməsi bütün islam dünyasında ikrah və qəzəb doğurur.

### Terror İranın əsl siması və mahiyyətidir

Bir neçə gün əvvəl Tehrandakı səfirliyimizin terror hücumuna məruz qalması da İranın Azərbaycanla bağlı yürütdüyü siyasətin nəticəsi idi. Vətən müharibəsindəki qələbəmizi, torpaqlarımızın azad olunmasını həzm edə bilməyən, Araz çayı sahilində hərbi təlimlər keçirib Azərbaycanı təhdid edən İran başqa bir şey edə bilmədiyi üçün səfirliyimizi hədəf seçdi.

Azərbaycanın İrandakı səfirliyinə qarşı silahlı hücum birmənalı şəkildə İran tərəfindən planlaşdırılmış terror hadisəsidir. Videogörüntülər də göstərir ki, bu hücum əvvəlcədən planlaşdırılıb, ölçülüb-biçilib. Polisin əlisilahlı şəxsin qarşısının alınması üçün müdaxilə etməməsi, cinayətkarın çox arxayın şəkildə hərəkət etməsi başqa cür düşünməyə əsas vermir. İran tərəfi hadisənin məsuliyyətindən yayınmaq üçün onun mahiyyətini təhrif etməyə çalışsa da, problemin məişət hadisəsi olmasını iddia etsə də, ortada olan faktlar bunu təkzib edir və göstərir ki, bu, Azərbaycan səfirliyinə qarşı törədilmiş terrordur. Səfirliyimizə qarşı terror isə Azərbaycan dövlətinə qarşı terrordur.

Bu hadisə ilk növbədə İranın əsl simasını bir daha ortaya qoydu. Xatırladaq ki, İran 1979-cu ildə Amerika səfirliyinə, 1992-ci ildə İsrailin Argentinadakı səfirliyinə də hücum edib. Son hadisə ilə bütün dünya ilk növbədə ona əmin oldu ki, fars-molla rejiminin öz məqsədləri naminə atdığı addımlardan biri terrordur. Azərbaycana əvvəlki təhdidlərində niyyətinə çata bilməyən İran səfirliyimizə qarşı bu terror əməlini törətməklə ölkəmizə qarşı əzələ nümayiş etdirəcəyini düşünüb.

İran indiyə qədər Yəmən, Suriya və digər dövlətlərdə yaratdığı terrorçu qruplaşmalarla qanlı hadisələrə rəvac verib, islam dünyası tarixinin qara səhifələrini yazıb. Bu ölkənin molla rejimi islam adına qara ləkə olan əməlləri ilə Azərbaycanda öz riyakar planlarını həyata keçirmək istəsə də hər zaman iflasa uğrayıb, ifşa olunub.

Azərbaycan güclü dövlətdir və Bakı Tehranın nə düşünməsindən, nə istəməsindən asılı olmayaraq, öz milli maraqlarını bundan sonra da qətiyyətlə təmin edəcək. İranın hər bir riyakarlığı isə bumeranq kimi özünə dəyəcək.

*R.CƏFƏRLİ, "Azərbaycan"*

# İranın terroru cavabsız qalmayacaq



**Hələ Birinci Qarabağ müharibəsindən başlayaraq Ermənistana dəstəyini əsirgəməyən İran bu gün də ölkəmizə qarşı riyakar əməllərini davam etdirir. Yanvarın 27-də Tehrandakı səfirliyimizdə törədilmiş silahlı basqın da əzəldən terror yuvası olan İranın ölkəmiz əleyhinə riyakarlığının növbəti sübutu oldu. Postmüharibə dövründə İran rəsmilərinin Azərbaycan əleyhinə səsləndirdikləri "sərhədlərin dəyişdirilməsi qırmızı çizgimizdir" və "Azərbaycan İsraillə əlaqə qurmamalıdır" kimi ifadələri, işğalçıyla dostluq münasibətləri onların ölkəmiz barədə xain planlarından xəbər verirdi.**

Azərbaycanın İrandakı səfirliyinin mühafizə xidməti rəisinin şəhid olması və iki nəfərin yaralanması ilə nəticələnən bu terror molla rejiminin anti-Azərbaycan isteriyasının nəticəsidir. Bütün bunlar sübut edir ki, İranda heç bir səfirliyin və diplomatik nümayəndəliyin toxunulmazlığına zəmanət verilmir. "Kalaşnikov" markalı avtomatla səfirlik binasına edilmiş hücumun, dövlət səviyyəsində təşkil edilmiş bu terror aktının "şəxsi motivlərlə" əlaqələndirilməsi isə tamamilə absurddur. Dezinformasiyalar yayaraq terrora başqa don geyindirmək cəhdləri rəsmi Tehranın beynəlxalq hüquq qarşısında məsuliyyətini azaltmır. Bu hadisənin yüksək peşəkarlıqla hazırlanmış terror aktı olması heç bir şübhə doğurmur.

Prezident İlham Əliyev fevralın 1-də Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən bildirib ki, hazırda bu terror aktı Azərbaycan tərəfindən hərtərəfli şəkildə araşdırılır. Dövlət başçısı qeyd edib ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

Odur ki, İran səhvini başa düşərək üzr istəməli, dərhal ciddi tədbirlər görməli və beynəlxalq hüquq qarşısında cavab verməlidir.

### Tehran əməllərinə görə cavab verməlidir

Milli Məclisin deputatı Elman Məmmədov qeyd edib ki, Tehranda törədilmiş hadisə İran dövlətinin ölkəmiz əleyhinə təşkil etdiyi terrordur: "Səfirlik ərazisi beynəlxalq hüquqa əsasən, mənsub olduğu ölkənin ərazisi hesab edilir. İran isə beynəlxalq hüququ və qoşulduğu konvensiyaları pozur, səfirlik nümayəndələrimizin təhlükəsizliyini qorumaq əvəzinə, terror aktı törədir. İranın rəsmi dairələrinin hadisədən sonrakı anlaşılmaz hərəkətləri də bunu sübut edir. Bu, qonşu dövlətin xüsusi xidmət orqanları tərəfindən dövlət səviyyəsində hazırlanıb. Görün, İranda nələr baş verir: küçədə çağırış edən, etirazını bildirən dinc insanlar edam edilir, İran rəsmisinə qarşı səsini qaldıran vətəndaş ciddi şəkildə cəzalandırılır, amma terror törətmiş şəxs həmin dəqiqə rahatlıqla televiziya kameraları qarşısına çıxır, müsahibə verir. İndi də deyirlər ki, həmin terrorçunun guya psixi problemləri olduğu üçün xəstəxanaya yerləşdirilməlidir. Bu, nə absurd yanaşmadır!"

Deputatın sözlərinə görə, Azərbaycan səfirliyinə qarşı silahlı basqının İranda dövlət səviyyəsində təşkil edildiyi açıq-aydın ortadadır: "Bu, gözlənilən idi, çünki uzun müddət idi ki, İranın yüksəkvəzifəli şəxsləri ölkəmiz əleyhinə təhqir və təhdidlər yağdırırdılar. İranın televiziya kanalları, müxtəlif KİV Azərbaycanın ünvanına uzun müddətdir ki, şər-böhtah atırdılar. Onu da qeyd etmək lazımdır ki, İran Zəngəzur dəhlizinin açılmaması üçün maneələr törətməyə cəhd edir. İran bizim suveren torpaqlarımızı 30 ilə yaxın işğalda saxlayan, xalqımıza qarşı soyqırımlar törədən, ərazilərimizdə islam mədəniyyətinə zərbə vuran, məscidlərimizi murdarlayan Ermənistanla dostluq edir və bəyan edir ki, bu dövlətin təhlükəsizliyi onun təhlükəsizliyidir. Bunlar hər biri İranın Azərbaycana qarşı düşmənçilik mövqeyindən xəbər verir".

E.Məmmədov deyib ki, İranın molla rejimi düşmənçilik apardığı siyasi hakimiyyətlərə qarşı "narazı kütlə" formalaşdırmağa çalışır: "Həm də bunu elə həmin ölkələrin öz ərazilərində reallaşdırmaq istəyir. Bunun üçün dini fanatiklərdən, eləcə də radikal feminist qruplaşmalardan istifadə edir, onlarla sıx əməkdaşlığa üstünlük verir. İstənilən halda İran törətdiyi bütün cinayət əməllərinə görə cavab verməlidir. Terror aktını törədən sifarişçilər aşkara çıxarılmalı və layiqli cəzalarını almalıdırlar. Əlbəttə ki, bu işdə beynəlxalq təşkilatlar da Azərbaycanın yanında olmalıdır".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# "Heydər Əliyev İli" ilə bağlı tədbirlər çərçivəsində Milli Məclisdə dinləmə keçirilib

**Fevralın 2-də "Heydər Əliyev İli" çərçivəsində Milli Məclisin Gənclər və idman komitəsi tərəfindən "Heydər Əliyev - müasir Azərbaycan gənclər siyasətinin banisi" mövzusunda ictimai dinləmə keçirilib. Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül çələngi və tər çiçəklər düzüblər. Sonra onlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidləri anıblar.**



Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ictimai dinləmənin iştirakçılarını salamladıqdan sonra Azərbaycanın Dövlət Himni səsləndirilib. Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Vitse-spiker Adil Əliyev toplantı iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın və rəhbərlik etdiyi komitənin adından salamlayaraq ictimai dinləmənin keçirilməsi üçün yaratdığı şəraitə görə parlamentin sədrinə təşəkkürünü ifadə edib.

Adil Əliyev bildirib ki, ölkəmizdə 2 fevral tarixi Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu Gənclər Günü kimi qeyd edilir. O, 2023-cü ilin Prezident İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan olunduğunu deyərək bu il 100 illik yubileyi qeyd ediləcək Ulu Öndərin Azərbaycan gənclər siyasətinin banisi olduğunu vurğulayıb. Vitse-spiker diqqətə çatdırıb ki, Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərə himayədarlıq edib, onların qayğıları ilə maraqlanıb. Onun bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına, bilikli, təhsilli gənclərin formalaşmasına xidmət edib.

Komitə sədri Adil Əliyev Ulu Öndər Heydər Əliyevin gənclərlə bağlı üç tarixi qərarı barədə danışıb. Bildirib ki, onun fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi yaradılıb, Ulu Öndərin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin Birinci Forumu keçirilib, onun 1997-ci il 2 fevral tarixli sərəncamı ilə 2 Fevral Azərbaycan Gəncləri Günü elan edilib. Parlamentin sədr müavini qeyd edib ki, bu qərarlar Azərbaycanın dövlət gənclər siyasətinin bünövrəsini təşkil edir.

Adil Əliyev Ulu Öndərin illər öncə təməlini qoyduğu gənclər siyasətinin bu gün uğurla davam etdirildiyini bildirib. Diqqətə çatdırılıb ki, hazırda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev gənclər siyasətini zamanın tələbinə və ruhuna uyğun şəkildə inkişaf etdirir. Bununla yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva gənclər sektorunun tərəqqisinə önəmli töhfələr verir. Məhz Ulu Öndər Heydər Əliyevin banisi olduğu sistemli siyasətin və kompleks yanaşmanın ölkə Prezidenti tərəfindən mütərəqqi və ahəngdar surətdə inkişaf etdirilməsi nəticəsində gənclərimiz bu gün ölkənin ictimai-siyasi həyatında fəallıq göstərir, dövlətimizi beynəlxalq səviyyədə layiqincə təmsil edirlər. 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı böyük zəfərdə gənclərimizin misilsiz rolu olub.

Qeyd edilib ki, bu gün də gənclərimiz mübarizə meydanında öz sözlərini deyirlər. Hazırda Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasında gənc fəallar yüksək əzmkarlıq göstərirlər.

Adil Əliyev idmançı gənclər haqqında söhbət açaraq bildirib ki, onlar beynəlxalq yarışlarda hər zaman uğurla iştirak edir, qələbələr qazanır, dövlətimizin bayrağını ucaldır, Azərbaycanı dünyada təbliğ edirlər.

Komitə sədri çıxışında yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilən silahlı hücum barədə fikirlərini də bölüşüb. O, bu terror aktı nəticəsində bir zabitimizin şəhid olduğunu, səfirliyin təhlükəsizlik xidmətinin əməkdaşının şücaət göstərərək silahlı terrorçunu zərərsizləşdirdiyini deyib. Bildirib ki, bu hadisə Azərbaycan gəncinin ölkəsini qorumaq üçün hər zaman hazır olduğunu bir daha nümayiş etdirdi.

Vitse-spiker diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla gənclər üçün Prezident mükafatı ayrıldı və gənclər sahəsində fəaliyyət göstərən şəxslər təltif edildi. O bildirib ki, bu, dövlət başçısı tərəfindən Azərbaycan gəncliyinə verilmiş dəyərdir.

Sonra tədbirdə gənclər və idman nazirinin müavini Fərhad Hacıyev çıxış edib. O, Azərbaycanda gənclər siyasətinin mənəvi və ideoloji əsaslarının Heydər Əliyev tərəfindən qoyulduğunu deyib. Qeyd edib ki, Gənclər Gününün təsis edilməsi, gənclərin forumlarının keçirilməsi, "Gənclər siyasəti haqqında" qanunun qəbul edilməsi bu siyasətin tərkib hissəsini təşkil edir. Müzakirələr zamanı parlamentin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, komitənin üzvləri Ülvi Quliyev, Etibar Əliyev, Könül Nurullayeva, Müşfiq Cəfərov, Elnur Allahverdiyev, Sevinc Hüseynova, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, Gənclər və İdman Nazirliyinin Bakı şəhər idarəsinin rəisi Rafiq Abbasov, Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev çıxış edərək öz fikirlərini bölüşüblər. Çıxış edənlər gənclərin inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işləri, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şəraiti təqdir ediblər.

Tədbirə yekun vuran Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev dinləmənin səmərəli keçdiyini söyləyib. O, Gənclər Günü münasibətilə ölkə gənclərinə təbriklərini çatdırıb, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Sonra tədbir iştirakçıları Milli Məclisin İnzibati binasının foyesində yaradılmış "Zəfər Guşəsi" ilə tanış olublar, Vətən müharibəsində şəhid olmuş qəhrəman övladlarımızın xatirəsini ehtiramla yad ediblər.

*"Azərbaycan"*

# "Heydər Əliyev və vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib

**Tərtərdə "Heydər Əliyev İli" çərçivəsində Gənclər günü münasibətilə ümumrayon tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəl mərkəzi meydanda Ulu Öndərin abidəsini, sonra isə Şəhidlər Abidə Kompleksini ziyarət ediblər.**



Tərtər Rayon İcra Hakimiyyətində davam edən tədbirdə Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov bildirib ki, dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur: "Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi illərində keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərdiyi gənclər bu gün ixtisaslı mütəxəssislər kimi müstəqil ölkəmizin inkişafında fəal iştirak edirlər. Ulu Öndər gənclərə arxalandığı kimi, gənclər də onu böyük lider, əvəzolunmaz şəxsiyyət, milli dövlət quruculuğunun banisi kimi qəbul edirlər".

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov gəncləri Gənclər Günü münasibətilə təbrik edərək ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirmişdir. O, Azərbaycanda bu gün həyata keçirilən gənclər siyasətinin gənc nəslin hərtərəfli inkişafı üçün şərait yaratdığını, onları vətənpərvər ruhda formalaşdırdığını, 44 günlük Vətən müharibəsinin Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmini bütün dünyaya nümayiş etdirdiyini vurğulamışdır. M.Məmmədov çıxışını əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin davamçısı Prezident İlham Əliyevin Azərbaycan gənclərinin vətənpərvərliyi barədə dediyi sözlərlə bitirmişdir: "Biz qəlbində güclü Vətən sevgisi olan gənc nəsil yetişdirdik. Hətta torpaqlarını görməyən gənclər bir arzu ilə yaşayıb ki, ədalət bərpa olunsun və onlar öz doğma torpaqlarına qayıtsınlar."

Tədbirin sonunda rayonun içtimai-siyasi həyatında fəal iştirak edən bir qrup gəncə rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatı tərəfindən Fəxri fərman, Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri, iki nəfərə isə "Vətən müharibəsi iştirakçısı" medalı təqdim olunmuşdur.

* * *

İmişlidəki Heydər Əliyev Mərkəzində Gənclər Günü ilə bağlı "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin, habelə Vətənimizin azadlığı və suverenliyi uğrunda canından keçən şəhidlərimizin xatirələrini birdəqiqəlik sükutla yad etmişlər. Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunmuşdur.

Çıxış edənlər bildirmişlər ki, Ümummilli Liderin dövlətçilik irsini öyrənən və təbliğ edən gənclərlə bağlı irimiqyaslı proqramların həyata keçirilməsinə dəstək verən Prezident İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da həm özünün ictimai-siyasi fəaliyyətində, həm də rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi bütün tədbirlərdə gənc nəslin sağlamlığını, intellektual və fiziki inkişafını daim diqqət mərkəzində saxlayırlar.

Tədbirin sonunda bir qrup gəncə rayon icra hakimiyyətinin Fəxri fərmanları təqdim edilmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın müdafiə naziri "Qış təlimi - 2023" təlimini izləyib











**Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə qardaş ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Qış təlimi - 2023" beynəlxalq təlimi çərçivəsində "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.**



Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Əvvəlcə müdafiə nazirlərinə "Qış təlimi - 2023" təlimi barədə raport verilib. Ordu rəhbərləri yeni nəsil texnika və avadanlıqlarla tanış olub, təlimin maddi-texniki təminat hissəsinə baxış keçiriblər.

Sonra Azərbaycanla yanaşı iştirak edən digər 17 ölkənin hərbi qulluqçuları sərt iqlim və çətin relyef şəraitində müxtəlif epizodlar üzrə tapşırıqların icrasını nümayiş etdiriblər.

Yekunda Türkiyənin milli müdafiə naziri H.Akar, Azərbaycanın müdafiə naziri general-polkovnik Z.Həsənov, Gürcüstanın müdafiə naziri C.Burçuladze müşahidəçilər və digər rəsmi qonaqlar qarşısında çıxış ediblər.

Qeyd edək ki, bu il yanvarın 18-dən fevralın 3-dək keçirilən təlimdə ölkəmizi təmsil edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq göstəriblər.

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam edir

**Başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81.6 km uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) məlumat yayıb.

Layihə üzrə yolun son 7 km-lik hissəsində 3 viaduk (dərə üzərində körpü) və 3 tunelin tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib.

Sözügedən 3 viaduk (şərti - V6, V7 və V8 viadukları) Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 78.7-79.7-ci km-lik hissəsində inşa olunub. V6 viadukun ortalama uzunluğu 345 metr (sol-300 m, sağ-390 m), V7 viadukun ortalama uzunluğu 182.5 metr (sol-175 m, sağ-190 m), V8 viadukun ortalama uzunluğu 392.5 metrdir (sol-410 m, sağ-375 m).







Tikintisi yekunlaşan 3 tunel isə (şərti - T4, T5 və T6 tunelləri) yolun 77.4-80.3-cü km-lik hissəsində inşa olunub. T4 tunelinin ortalama uzunluğu 540 metr (sol-570 m, sağ-510 m), T5 tunelinin ortalama uzunluğu 455 metr (sol-431 m, sağ-476 m), T6 tunelinin ortalama uzunluğu 513 metrdir (sol-526 m, sağ-500 m).

Layihə üzrə yolun sözügedən hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 4 dairəvi suötürücü boru, 10 düzbucaqlı su keçidi, 1 alt keçid və 3 ehtiyat keçidi inşa edilib.

"İnşaat Norma və Qaydaları"na uyğun layihə çərçivəsində yol oxunun keçdiyi qazma hissələrdə yamacın dayanıqlığının saxlanılması üçün ümumi uzunluğu 6150 metr olan daş və geodivarın, həmçinin drenaj kanallar üçün ümumi uzunluğu 12210 metr beton küvetlərin tikintisi, aşınma layına qədər asfalt-beton örtüyünün döşənməsi işləri də yekunlaşıb.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər hissələri üzrə tikinti işləri tərtib olunmuş qrafikə uyğun sürətlə və keyfiyyətlə davam etdirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Vətən könüllüsü

### Gənc fəal Kamran ƏLİYEV: "Prezidentin ali mükafatına layiq olduğum üçün qürur duyuram"





**"Dövlət başçısının sərəncamı ilə 2023-cü il Gənclər üçün Prezident mükafatına layiq görülmüşəm. Hesab edirəm ki, bu mükafat Azərbaycan gənci üçün ən ali mükafatdır və bu, illər ərzində həm şəxsi adıma, həm də Azərbaycan könüllüləri adına gördüyümüz işlərin ölkə rəhbəri səviyyəsində yüksək qiymətləndirilməsinin göstəricisidir. Azərbaycan gənci olaraq Prezidentin ali mükafatına layiq olduğum üçün qürur duyuram. Bu cür yüksək qiymətə görə dövlət başçısına minnətdarlığımı bildirirəm".**




### Sağlam əqidə, çağdaş düşüncə, vətənpərvərlik ruhu

Bu gün Azərbaycan gəncliyi sağlam əqidəsi, çağdaş düşüncəsi, vətənpərvərlik ruhu ilə cəmiyyətimizə müvəffəqiyyətlə öndərlik edir. Tükənməz enerjili, yüksək potensiallı gənclərimiz xalqımıza, dövlətimizə, bütövlükdə Vətənimizə əzmkarlıqları və qətiyyətləri sayəsində parlaq qələbələr qazandırır, Azərbaycanı işıqlı gələcəyə ötürürlər.

Bütün bu parlaq nailiyyətlər isə vaxtilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu gənclər siyasətinin Prezident İlham Əliyevin şəxsi diqqəti altında daha da inkişaf etdirilməsinin, gənclərimizə hərtərəfli dəstək və qayğı göstərilməsinin bariz nəticəsidir.

44 günlük Vətən müharibəsi zamanı gənclərimiz həm döyüş meydanında, həm də informasiya cəbhəsində haqq uğrunda apardıqları mübarizələri ilə adlarını qızıl hərflərlə tariximizə həkk etdirdilər.

Bu gün də Azərbaycan gəncləri xalqımızın milli mənafelərinin keşiyində ayıq-sayıq dayanıblar, ölkəmizə qarşı təhdid yaradan bütün qüvvələrə qarşı istənilən platformada layiqli mübarizə aparırlar.

Düz yeddi ildir ki, könüllü gənclərin sırasında Azərbaycan naminə aktiv fəaliyyət göstərən vətənpərvər gənclərimizdən biri də "Aqrar İnkişaf Könüllüləri" təşkilatının sədri, "Azərbaycan Könüllülər Təşkilatları İttifaqı"nın sədr müavini Kamran Əliyevdir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin sərəncamı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənənlərdən, 2023-cü il Gənclər üçün Prezident mükafatına layiq görülənlərdən biri də elə Kamran Əliyevdir.

### Uğur illəri

1999-cu il yanvarın 17-də Bakı şəhərində anadan olan Kamran Əbülfəz oğlu Əliyev 2021-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Hazırda Ali Neft Məktəbində "Biznesin idarəedilməsi və təşkili" ixtisası üzrə magistr təhsili alır.

O, 2016-cı ildən aktiv şəkildə könüllü kimi fəaliyyət göstərir. 2017-2018-ci illər ərzində "ASAN Könüllüləri" Təşkilatında müxtəlif vəzifələrdə çalışıb, təşkilatın idarə heyətinin üzvü, "AVO MUN 2017", "AVO MUN 2018", "Könüllülər Parlamenti-Azərbaycan - 2017" layihəsinin təşkilat komitəsinin rəhbəri, 2019-cu ildə layihə rəhbəri olub. 2019-cu ildə həyata keçirilən BMT-nin Dövlət Xidmətləri Forumunun təşkilat komitəsinin üzvü, həmçinin "İstedadların və mükafatların idarədilməsi" konfransı, "HR SUMMİT" layihələrinin təşkilatçısı olub.

K.Əliyev 2020-ci ildə uğurlu fəaliyyətinə görə Gənclər və İdman Nazirliyi tərəfindən təltif edilib, 2022-ci ildə isə Azərbaycan Ağır Atletika Federasiyasına icraçı direktor təyin olunub.

### Vətən müharibəsinin "Mətbuat səngəri"

Gənc Prezident mükafatçısı söyləyir ki, "Aqrar İnkişaf Könüllüləri" təşkilatının sədri olduğu dövrdə QHT üzvləri, könüllülər hər zaman öz fəaliyyət istiqamətlərinə uyğun olaraq ölkəmizin hərtərəfli və davamlı inkişafına mühüm töhfə vermək üçün ciddi səylə çalışıblar. Təşkilat üçdən çox beynəlxalq layihədə iştirak edib, 40-dan çox respublika miqyaslı layihə, regionlarda 5000-dən çox lokal xarakterli tədbirlər təşkil edib.

Xüsusilə 2020-ci ildə - pandemiya və Vətən müharibəsi dövründə aktiv fəaliyyət göstərdiklərini söyləyən Kamran Əliyev deyir ki, "Azərbaycan Könüllülər Təşkilatları İttifaqı" regionlarda yaşı 75-dən yuxarı və digər ehtiyacı olan şəxslərə yardımların çatdırılması, tibbi maskalardan istifadə qaydalarının təbliğ olunması istiqamətində əhəmiyyətli iş aparıb.

Vətən müharibəsi dövründə isə "Mətbuat səngəri" platforması yaratdıqlarını söyləyən gənc fəal bildirir ki, bu platforma çərçivəsində düşmənin provokativ təbliğatlarının qarşısını almaq üçün gəncləri, könüllüləri feysbukda, tviterdə və digər sosial media resurslarında təşkilatlandırıblar, onları yalan məlumatların ifşa olunması istiqamətində aktiv şəkildə iştiraka cəlb ediblər: "Müxtəlif yalan məlumatların həqiqətdə necə olduğunu göstərən real faktlar vasitəsilə biz dünya ictimaiyyətinə əsl reallığı çatdırırdıq".

### Haqq mübarizəsinin gənc fəalı

Kamran Əliyev ötən il dekabrın 12-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasında sərvətlərimizin talanmasının qarşısının alınması üçün Laçın-Xankəndi yolunda ekofəallarımızın keçirdiyi dinc etiraz aksiyasında da fəal iştirak edir. O, vətənpərvər gənclərimizlə birgə haqq səsimizin dünyaya çatdırılması, tələblərimizin yerinə yetirilməsi üçün qətiyyətlə mübarizə aparır: "Həm "Azərbaycan Könüllülər Təşkilatları İttifaqı"nın sədr müavini, həm də "Aqrar İnkişaf Könüllüləri" təşkilatının rəhbəri olaraq, Azərbaycan könüllüləri adından 55-ci gündür ki, Laçın-Xankəndi yolunda fəaliyyətimizi davam etdiririk. Minlərlə gəncimizin gəlib orada öz haqlı etirazlarını bildirməsi üçün həm təşkilati, həm də digər vacib dəstəkləri göstəririk".

Gənc fəal vurğulayır ki, tələbləri yerinə yetirilməyənə, sözügedən ərazilərimizdə qeyri-qanuni ekoloji istismar dayandırılmayana, eyni zamanda ekoloji monitorinq qrupumuzun öz ərazilərimizdə yoxlamalar aparması təmin olunmayana qədər mübarizələrini davam etdirəcəklər.

Bəli, Azərbaycan gəncləri hər zaman xalqının, dövlətinin müdafiəsindədirlər və ölkəmizin inkişafı üçün bütün sahələrdə cani-könüldən çalışırlar. Vətən könüllüsü olurlar...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ədalət qlobal hüquq müstəvisində təmin olunmalıdır

### Azərbaycan mina terroru ilə bağlı Ermənistan tərəfindən dərhal lazımi addımlar atılmasını Beynəlxalq Ədalət Məhkəməsindən tələb edib

**Xəbər verildiyi kimi, Azərbaycan Ermənistanın soydaşlarımızın insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə (BƏM) müraciət edib.**

Müraciətdə xüsusilə Ermənistanın 2021-ci ildən başlayaraq Azərbaycan ərazisində minalar və evlərdə mina tələlər yerləşdirməkdə davam etdiyinə dair yeni sübutlar, Ermənistanın qanunsuz işğalı nəticəsində azərbaycanlıların 30 il əvvəl qovulduğu mülki yaşayış məntəqələrində və ya onların yaxınlığında yerləşdirilməklə məcburi köçkün ailələrinin və icmaların öz evlərinə qayıtmasına maneçilik törətməsi, üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq hərbi təxribatlarını davam etdirməsi və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan minaların, digər silahların daşınması məqsədilə açıq şəkildə istifadə etməsinə dair sübutlar yer alıb.

Daha sonra Azərbaycan əsas iddia sənədini Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib. Sənəd otuzillik ədalətsizliyi qeydə alan minlərlə səhifəlik dəlillərə əsaslanır. Ermənistan tərəfindən ən dəhşətli aktlardan biri olan etnik və milli mənsubiyyətə görə qətlə yetirilmiş, didərgin salınmış və zərər çəkmiş azərbaycanlılar haqqında, ermənilərin qəsbkarlığı və Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin qeyri-qanuni işğalı ilə bağlı məlumatları özündə ehtiva edir.

BMT-nin ali ədliyyə orqanı olan BƏM-ə edilən müraciətlər, təqdim olunan, faktlara əsaslanan sənədlər cavabsız qalmadı. Əvvəlcə Azərbaycanın Ermənistana qarşı işi üzrə ictimai dinləmələr keçirildi. Haaqadakı Sülh Sarayında baş tutan dinləmələrdə Azərbaycan tərəfi Ermənistanın Qarabağda qeyri-qanuni iqtisadi fəaliyyəti, Azərbaycan ekologiyasına vurduğu ziyan, eyni zamanda Laçın yolunda hər hansı blokadanın olmadığını bəyan etdi.

Yanvarın 31-də isə məhkəmə işi üzrə əlavə müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə Azərbaycanın sorğusu üzrə açıq dinləmələr baş tutdu. Azərbaycan burada da öz haqqını, beynəlxalq müstəvidə pozulmuş hüquqlarını tələb etdi və bütün məsələləri faktlarla irəli sürdü. Belə ki, azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıtmasına imkan yaratmaq məqsədilə Laçın və Kəlbəcər rayonlarının və əvvəllər işğal olunmuş digər rayonların ərazilərində minaların, mina tələlərinin və digər partlayıcı qurğuların yeri, miqdarı, növü və xüsusiyyətləri barədə məlumat verməsi üçün Ermənistan tərəfindən dərhal bütün lazımi addımlar atılması BƏM-dən sorğu edildi. Azərbaycan həmçinin Laçın yolundan istifadə etmək də daxil olmaqla, azərbaycanlı mülki vətəndaşların qayıdacaqları ərazilərdə mina və mina tələləri basdırmaq, onlara sponsorluq etmək və ya onların yerləşdirilməsini dəstəkləmək üçün hər hansı növbəti səyləri dərhal dayandırması və bundan imtina etməsi ilə bağlı Ermənistana göstərişin verilməsini məhkəmədən xahiş etdi.

Xatırladaq ki, 2021-ci il dekabrın 7-də məhkəmə Azərbaycanın ilk sorğusunu təmin edərək, Ermənistana azərbaycanlılara qarşı yönəlmiş irqi nifrətin qızışdırılmasının və təşviqinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməyi tapşırmışdı.

### Azərbaycanın təqdimatının növbəti addımlarımız üçün böyük rolu olacaq

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu Haaqada keçirilən dinləmələrlə bağlı bildirib ki, Azərbaycan tərəfinin istəyi ilə BƏM-də bir sıra məsələlərə baxılıb, müzakirələr aparılıb. O qeyd edib ki, Ermənistan tərəfinin Azərbaycanın minalanmış ərazilərinin xəritəsini hələ də təqdim etməməsi, 2020-ci ildən ötən zamanda təkidli tələblərimiz sayəsində təqdim edilən xəritənin qeyri-dəqiqliyi müzakirə mövzusu olub.

Deputat deyib ki, bu, Ermənistanın Azərbaycan xalqına qarşı terroru davam etdirməkdə israrlı olduğunu göstərir: "Bundan başqa, humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolu vasitəsilə Ermənistandan Xankəndiyə minaların gətirilməsi davam etdirilirdi. Bunu cənab Prezident də dəfələrlə müxtəlif platformalardan səsləndirib. Dövlət başçısı ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığında da bildirdi ki, Laçın yolu bağlı deyil və xatırlatdı ki, ermənilər qeyri-mülki məqsədlər üçün o yoldan istifadə edərək 2021-ci il Ermənistan istehsalı olan minaları Azərbaycan ərazilərinə daşıyıblar. Bu isə yolverilməzdir.

Elşad Mirbəşiroğlu qeyd edib ki, Azərbaycan tərəfi məhkəmədə məhz bu məsələni xüsusi müzakirə predmetinə çevirməyi bacarıb. Bu, bizim böyük uğurumuzdur, diplomatik, beynəlxalq hüquq müstəvisində mövqelərimizin qəbul olunması, möhkəmlənməsi baxımından təsirli rola malikdir.

Deputat vurğulayıb ki, Ermənistan məhkəmə müzakirələri zamanı növbəti riyakarlığını göstərib. Onun sözlərinə görə, dünya ictimaiyyətinin çaşdırılması istiqamətində həmişə bu ölkənin tətbiq etdiyi yalan mexanizmlər müşahidə edilib. "Ermənistan tərəfi qeyd edir ki, Azərbaycan ərazilərində 120 min erməni blokada şəraitindədir, hətta onlar humanitar böhran vəziyyətindədirlər. Bunlar tam əsassız, həqiqətə uyğun olmayan iddialar idi ki, Azərbaycan tərəfi də mövqelərini arqumentləşdirdi. Beləliklə, Ermənistanın iddialarının əsassız olduğunu diqqətə çatdırdı", - deyə deputat əlavə edib.

Deputatın sözlərinə görə, Azərbaycan BƏM kimi mühüm bir platformada mövqeyini təqdim etməklə, informasiya xarakterli aksiya həyata keçirmiş oldu, bununla da mövqelərimizi beynəlxalq ictimaiyyətə bir daha təqdim etdi. Bu da ondan ibarətdir ki, Laçın yolu açıqdır və bu yol mülki məqsədlər üçün tam sərbəst istifadə olunmaqdadır. Azərbaycan ekofəalları mülki təyinatlı avtomobillərin, insanların yoldan istifadə etməsi üçün heç bir məhdudiyyət yaratmırlar. Ümumiyyətlə, etirazçıların məqsədi məhdudiyyət yaratmaq deyil. Bu məsələdə gənclərin kifayət qədər açıq tələbləri var. Bu, ermənilərin Azərbaycan ekologiyasına qarşı törətməkdə olduğu terrorun qarşısınn alınması, faydalı qazıntılarımızın qeyri-qanuni istismarının dayandırılmasıdır.

Deputat qeyd edib ki, Ermənistan növbəti dəfə yanlış məlumatlar təqdim etsə də, Azərbaycan tərəfi onların uydurmalarını zərərsizləşdirib: "Bu da önəmli haldır. Azərbaycanın mövqelərinin kifayət qədər güclü olduğu bir məqamda BƏM-də qalib gəlməyimiz bizə əlavə təsir elementləri təqdim edir, mövqelərimizi daha da möhkəmləndirir. Bunun sonrakı haqlı addımlarımız üçün təsirli rolu olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azad edilmiş ərazilərdə ötən ay aşkarlanan partlamamış hərbi sursatların sayı açıqlanıb




**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatları barədə aylıq məlumatı açıqlayıb.**

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, yanvarın 1-dən 31-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı 61 piyada əleyhinə, 157 tank əleyhinə mina və 523 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 1504,56 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Sülhməramlıların daha 6 avtomobilinin aksiya ərazisindən keçidinə şərait yaradılıb






Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

AZƏRTAC xəbər verir ki, Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus iki minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb. Həmçinin iki minik və iki təminat-təchizat avtomobili də Laçına keçid edib.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

# Azərbaycan zəngin potensialı ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır

**Xəbər verdiyimiz kimi, fevralın 3-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, bu mötəbər tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələrinin iştirakı nəzərdə tutulur.

İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar da təmsil olunacaq.



Toplantı açılış sessiyasından sonra "Cənub qaz dəhlizi" və "Yaşıl enerji" üzrə nazirlər sessiyası", "Cənub qaz dəhlizi": Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji": Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam edəcək.

Həmçinin Məşvərət Şurası çərçivəsində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında imzalanmış "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası üzrə rəhbər komitənin ilk iclasının keçirilməsi də planlaşdırılır.

Tədbirin sonunda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının yekunlarına dair mətbuat konfransı keçiriləcək.

## Azərbaycanın enerji siyasətinin Avropa üçün artan əhəmiyyəti: təbii qaz və "yaşıl enerji"

Artıq doqquzuncu dəfə təşkil olunan "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də bu il daha iki mühüm tədbirin - "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və "yaşıl enerji"nin ötürülməsinə dair dördtərəfli sazişin icrası üzrə rəhbər komitənin ilk iclasının da baş tutması Azərbaycanın Avropanın enerji təminatında artan rolunu açıq şəkildə ortaya qoyur. İqtisadi inkişafını durmadan şaxələndirərək genişləndirən Azərbaycan bununla da Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi işində əhəmiyyətli addım atır.

Prezident İlham Əliyevin həyata keçirdiyi yeni enerji siyasətinin bu baxımdan iki əsas komponentini xüsusi vurğulamaq lazımdır. Belə ki, ötən ilin fevralında Rusiya-Ukrayna müharibəsinin başlaması digər sahələrdən fərqli olaraq, enerji təminatı sahəsində vəziyyəti xüsusilə kəskinləşdirdi. Rusiyaya qarşı bir sıra sanksiyalar tətbiq etməyə başlayan Avropa özünün enerji təminatı üçün alternativ mənbələrə üz tutdu. Bu istiqamətdə ötən il iyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması xüsusi əhəmiyyət daşıyır. Həmin sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar. Xüsusilə vurğulamaq lazımdır ki, artıq həmin sənədin icrasına başlanıb.

Qeyd edək ki, 2021-ci ildə Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil edirdisə, 2022-ci ildə bu rəqəm 11,3 milyard kubmetr olub. Cari ildə isə onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. 2023-cü ildə Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə bu rəqəm 19 milyard kubmetr təşkil edirdi. Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyini qoruması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Dövlət başçısının yeni enerji siyasətinin digər mühüm komponenti isə odur ki, Prezident İlham Əliyev Avropaya digər enerji körpüsünü də salır. Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan verir. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Azərbaycan strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırır.

## "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi yer tutur

Xüsusi vurğulamaq lazımdır ki, "Cənub qaz dəhlizi" ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. Bu layihənin əhəmiyyətini Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri zamanı mətbuata bəyanatında aydın görmək olur: "Vaxtilə NABUKKO layihəsi üzərində böyük işlər aparılmışdı. Ancaq maliyyə mənbələri müəyyən edilmədiyi üçün NABUKKO layihəsi icra edilmədi. Buna baxmayaraq, Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl "Cənub qaz dəhlizi" icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır".

Bu nəhəng layihə ilə bağlı ilk sənəd - Azərbaycan ilə Avropa Komissiyası arasında "Cənub qaz dəhlizi" layihəsi üzrə Birgə Bəyannamə 2011-ci ildə imzalanıb. Bu, həmin layihənin icrasının başlanğıc mərhələsi sayılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il oktyabrın 29-da imzaladığı sərəncamla "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində Azərbaycanın mənafeyini qorumaq və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə dövlət komissiyası yaradılıb. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin iyirmi illiyində Səngəçalda Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçılarının, nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə "Cənub qaz dəhlizi" layihəsinin təməlqoyma mərasimi keçirilib.

Azərbaycan strateji əhəmiyyət daşıyan "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı, səhmdarı və evsahibinə çevrilib. Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, sonrakı dövrdə İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya qoşulub. Hazırda yeni və potensial tərəfdaşlar arasında Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da yer alıb.

Artıq Azərbaycan hasil etdiyi qazı qonşu dövlətlərə ixrac edir və Avropa bazarına ixraca başlamaq üçün yeni kəmərlər tikilib. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz boru kəməri) istifadəyə verilib və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilməyə başlanıb. 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin (ozamankı) Baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsinə imza atılıb. 2013-cü ildə "Şahdəniz" konsorsiumu TANAP kəməri ilə daşınacaq Azərbaycan qazının Avropa bazarına çatdırılması üçün Türkiyə sərhədini İtaliyanın cənubuna birləşdirən TAP (Trans-Adriatik təbii qaz boru kəməri) layihəsini seçib və kəmərin tikintisi 2020-ci ildə başa çatdırılıb. Bu layihələr "Şahdəniz" yatağını İtaliyanın cənubuna birləşdirməklə "Cənub qaz dəhlizi" layihəsinin reallaşmasına imkan verib.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin görüşləri 2015-ci ildən başlayaraq hər il keçirilir. 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən "Cənub qaz dəhli"zinin önəmli hissəsi olan TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. "Cənub qaz dəhlizi" layihəsinin əsas elementlərindən biri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi başa çatdıqdan sonra, 2018-ci il iyunun 30-dan "Şahdəniz-2" çərçivəsində Türkiyəyə kommersiya təyinatlı qaz həcmlərinin nəqlinə başlanılıb. 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin rəsmi açılışı olub və bununla da onun tikintisi tamamlanıb. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəməri ilə 2020-ci il dekabrın 31-dən etibarən kommersiya təbii qazının nəqlinə başlanılıb. Beləliklə, Azərbaycanın zəngin qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılmasına nail olunub.

Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr civarındadır. Yalnız "Ümid" yatağının potensialı 200 milyard kubmetrdən çoxdur. Bu isə qarşıdakı 100 ildə də Azərbaycanın karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı kimi tanınmasına imkan verir. "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələrinin operatoru olan bp ilə icrasına başlanan "D 230" bloku və "Şəfəq- Asiman" qaz yatağının işlənilməsi üzərində işlər davam etdirilir. Beləliklə, Azərbaycanın enerji sahəsində məqsədyönlü fəaliyyəti onu regional enerji mərkəzinə və etibarlı tərəfdaşa çevirir. Prezident İlham Əliyev bu barədə bildirib: "Əlbəttə, enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada xüsusi əhəmiyyət daşıyır və hesab edirəm ki, dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra - təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun. Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz belə də adlandırır: etibarlı tərəfdaş".

## Azərbaycan zəngin "yaşıl enerji" potensialı ilə Avropanın enerji təminatındakı rolunu daha da gücləndirir

Yaxın keçmişdə aşkarlanan böyük "yaşıl enerji" potensialı da Azərbaycanın bu baxımdan önəmini daha da artırır. "Yaşıl enerji" ilə bağlı olan və artıq icra olunan layihələr Azərbaycanı Avropa üçün daha da yaxın edəcək.

Bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban imzalayıblar. İmzalanma mərasimində Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen iştirak ediblər. Bu sazişə əsasən, Azərbaycan "yaşıl enerji"sini Avropaya çatdıracaq.

Sazişə əsasən, elektrik enerjisi kabeli Qara dənizin dibi ilə çəkiləcək və bu, Azərbaycandan olan "yaşıl enerji"ni Avropaya gətirəcək. Bu isə o deməkdir ki, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Azərbaycanın Avropa İttifaqı ilə enerji dialoqunda yeni mövzular olan "yaşıl enerji" və "yaşıl hidrogen" böyük perspektivi olan sahədir və Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcək. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan cəmi iki il əvvəl azad edilmiş ərazilərin də potensialından istifadə olunması istiqamətində ciddi addımlar atmağa başlayıb.

bp-nin azad olunmuş Cəbrayılda günəş enerji stansiyasına yatırım etmək qərarı yüksək dəyərləndirilir. 230 meqavatlıq günəş enerji stansiyası azad edilmiş ərazilərdə birinci olacaq. Zəngəzur dəhlizindən eyni zamanda elektrik enerjisi ötürüləcək. Məhz bu məqsədlə Cəbrayıl rayonunda böyük qəbuledici və çevirici stansiya tikilir. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda günəş və külək enerjisinin minimal potensialı 9200 meqavat təşkil edir. Hidroenerji potensialı isə minimal olaraq 600 meqavatdır. Azad edilmiş ərazilərdə 30-dan artıq orta və kiçik həcmli su-elektrik stansiyası tikiləcək, onların 5-i artıq istismara verilib.

Azərbaycanın bərpaolunan enerji potensialında Xəzər dənizi xüsusi yer tutur. Çünki Xəzər Şimal dənizindən sonra külək enerjisi potensialına görə ikinci yerdədir. Ehtimal ki, enerji şirkətləri bp kimi addım atacaq və nəhəng külək potensialına malik Kəlbəcərə, Laçına və bəlkə də ölkəmizin ən günəşli yeri olan Cəbrayıla nəzər salacaqlar.

Hazırda Azərbaycanda reallaşan investisiya layihələri (günəş, külək-elektrik stansiyaları) ölkəyə əlavə 700 meqavatdan çox təmiz "yaşıl enerji" verəcək. Bununla paralel olaraq, dünyanın iki aparıcı şirkəti ilə imzalanmış niyyət protokolları əsasında Azərbaycanda 22 min meqavata qədər günəş və külək-elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

Beləliklə, Azərbaycanın zəngin enerji resurslarının dünya bazarına çıxarılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə başlayan şərəfli yol bu gün Ulu Öndərimizin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün və ən müasir texnoloji inkişaf reallıqları nəzərə alınaraq uğurla davam etdirilir. Azərbaycanın nəhəng enerji potensialı ölkəmizin daha neçə onilliklər ərzində də Avropanın enerji təminatında həlledici rol oynamasına imkan yaradacaq.

# Ermənistanda hərbi cinayətlər artıb

**Ermənistanda hərbi müstəvidə də böyük problemlərin hökm sürməsi heç kimə sirr deyil. Son vəziyyətin təhlili ilə bu ölkənin silahlı qüvvələrində xaos halının daha da dərinləşməsi müşahidə olunur. Narazılıq doğuran məqamlardan biri də orduda artan itki hallarının gizlədilməsinə cəhdlərin göstərilməsidir. Bu xüsusda ötən ilin aprelində aldığı xəsarətlərdən ölən erməni hərbi qulluqçu Samvel Balanasyanın olayı ətrafında proseslərin daha da gərginləşməsi müşahidə olunur.**



Xatırladaq ki, ötən il Ermənistan ordusunun müqaviləli hərbi qulluqçusu Samvel Balanasyan odlu silah yarasından ölsə də, Müdafiə Nazirliyi bu barədə məlumat yaymayıb. Hadisə ilə bağlı intihar həddinə çatdırma maddəsi üzrə cinayət işi açılıb. Məlum olub ki, S.Balanasyan 6 ay imiş ki, müqaviləli hərbi xidmətə başlayıbmış. Onun valideynləri intihar versiyasına inanmırlar. Anası Mariya Balanasyan eyni vaxtda postda olan 8-9 nəfərin vicdanlarının susduğuna inana bilmədiyini deyərək, onların tez və ya gec cavab verməli olacaqlarını bildirib.

Hərbi qulluqçunun anası onun aldığı xəsarətin döş qəfəsində olduğunu qeyd etməklə, bu faktın intihar hadisəsini inkar etdiyini, məsələ ilə bağlı hazırda istintaq orqanlarının məşğul olduğunu və hər şeyin üzə çıxacağına inandığını söyləyib.

Bu cür faktların çoxluğu fonunda belə qənaət yaranır ki, ölkədə ordunun çöküşü əvvəlki dinamika ilə davam edir. Bunu hətta müvafiq rəsmi dairələr də təsdiqləyir. Elə bunun nəticəsidir ki, ötən il Ermənistanda hərbi cinayətlərlə bağlı ittiham aktları artıb. Ermənistan İstintaq Komitəsinin yaydığı məlumatda qeyd olunub ki, 2022-ci ildə komitənin Baş hərbi istintaq idarəsi 6510 işə baxıb, onlardan 2112-nin (32,4 faiz) istintaqı başa çatıb. İttiham aktları 586 nəfərə (2021-ci illə müqayisədə təxminən 60 faiz çox) tərtib edilib. Qeyd edilən müddətdə Ermənistan silahlı qüvvələrində xidmət qaydasının pozulması halları da nəzərə alınıb.

Ümumilikdə, 2022-ci ildə İstintaq Komitəsi tərəfindən baxılan cinayət işlərinin sayı 59 830 və ya 2021-ci illə müqayisədə demək olar 43 faiz çoxdur.

Qeyd edilir ki, il ərzində həbslə bağlı 1 768 vəsatət qaldırılıb, onlardan 1 424-ü təmin edilib. Cinayət işləri çərçivəsində əmlaka dəymiş ziyan təqribən 7,3 milyard dram (18 milyon ABŞ dolları) təşkil edib.

Başqa bir cinayətlə bağlı hərbi prokurorluq tərəfindən təhqiqat aparılarkən təsadüf nəticəsində bıçaqlanma hadisəsinin üstü açılıb. Məlum olub ki, bu cinayət uzun müddət hüquq-mühafizə orqanlarından gizlədilib. Faktla bağlı cinayət işi açılıb və Henrix Qasparyan adlı hərbi qulluqçu istintaqa cəlb olunub.

Ermənistan mediası yazır ki, belə hadisələrin sayı yüzlərlədir. Elə bunun nəticəsində orduda fərarilik, intihar hallarının sayı artır. Hərbi hissələrdə həmçinin epidemiya tüğyan edir. Elə bu günlərdə 50-yə yaxın əsgər ağır vəziyyətdə hospitallara yerləşdirilib. Digər tərəfdən Ermənistan ordusunun bölmələrində özbaşınalıq və qanunsuzluqlar səbəbindən ölən və yaralananların sayı artmaqda davam edir.

Epidemiya, soyuqların düşməsi və qar yağması da aclıqdan, şəraitsizlikdən əziyyət çəkən hərbçilər üçün bəlaya çevrilib. Əsgərlər müxtəlif virus xəstəliklərindən əziyyət çəkirlər. Tibbi heyət problemin qarşısını almağa çalışsa da, dərman preparatlarının və zəruri ləvazimatların çatışmaması səbəbindən profilaktik tədbirlər görmək mümkün olmur.

"4rd.am" saytı yazır ki, yeni müdafiə nazirinin təyin edilməsindən savayı, orduda heç bir dəyişiklik olmayıb. Ölümlər davam edir, bu məsələlər obyektiv araşdırılmır, çox pis təhqiqat aparılır, işlər açılmır. Ordudakı ağır duruma görə cavabdehlər cəzasız qalır. Vurğulanır ki, 2020-ci il Qarabağ müharibəsində ordunun döyüş bacarığı haqda təbliğat tezisi hamının gözü qarşısında buxarlanır.

Bütün bunlar bir daha təsdiq edir ki, məğlub ölkənin ordusunun çöküşü sürətlə davam edir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

## İlin uğurlu yekunları



# Dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin Şuşadan təcəssümü



Tariximizə Zəfər günü kimi yazılan o gündən - 2020-ci ilin 8 noyabrından bəri Qarabağın və Şərqi Zəngəzurun düşmən işğalından azad edilmiş bütün yaşayış məskənləri kimi, Şuşanın da üzü gülür. Həmin gün ki Azərbaycanın igid, mərd oğulları öz qəhrəmanlıqları ilə dastan yazdılar. Prezident İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində Şuşanın azad olunması müjdəsini verdi:
"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!", - dedi

### Şuşada düzənlənən möhtəşəm tədbir

Vətən müharibəsindən sonra Azərbaycanın bu qədim və gözəl şəhərinin, mədəniyyət mərkəzi, Qarabağın baş tacı olan Şuşanın yeni, mənalı, xoş günləri başlayıb. Düşmən işğalında qaldığı otuz ilə yaxın müddətin ağrısı, acısı yavaş-yavaş çıxır, yaraları sağalır.

Şuşa artıq yağıların tapdağı altında inləmir. Bu əsrarəngiz şəhər işğalın davam etdiyi illərdə də Ermənistanın cəhdlərini boşa çıxardı. Erməni vandalları onun tarixini, mədəniyyətini özününküləşdirə bilmədilər. Gücləri yalnız uçurub-dağıtmağa yetdi. Vətən müharibəsindən sonra doğmalarının əlləri ilə yenidən qurulur, canlanır Şuşa...

Ermənistanın əsarətindən qurtulandan bəri Qarabağda həm də tarixi və mədəni ənənələrimiz bərpa edilib, Şuşa şəhərinin işğalı ilə yarımçıq qalmış tədbirlər yenidən düzənlənir. Azad olunandan sonra bu şəhərdə "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri keçirildi. Milli Məclisin "Şuşa ili"nə töhfəsi olaraq qala şəhərində parlamentin komitə iclaslarının keçirilməsinə başlanıldı. Daha bir əlamətdar hadisə isə bu illə əlaqədardır. Belə ki, 2023-cü ildə Şuşa Türk dünyasının mədəniyyət paytaxtı elan olunub.

### Zəfər adı xalqımıza çox yaraşır

Keçən il Şuşada təşkil olunan ən unudulmaz tədbirlərdən biri də Dünya Azərbaycanlılarının V Qurultayının bu şəhərdə keçirilməsi oldu. Həmin əlamətdar gündə dünyanın müxtəlif yerlərində, fərqli məkanlarında yaşayan həmvətənlərimiz böyük fəxarət, qürur hissləri yaşadılar.

Tarixə Zəfər qurultayı kimi yazılan Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçıları və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları əvvəlcə respublikamızın paytaxtında Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanlarını ziyarət etdilər. Sonra Şuşa şəhərinə yola düşdülər. Dünya Azərbaycanlılarının V Qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak etdi.

Prezident İlham Əliyev vurğuladı: "Biz bu gün azad Qarabağda, azad Şuşada dünya azərbaycanlılarının qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır". Dövlət başçısı bildirdi ki, bundan sonra xalqımız müzəffər xalq kimi, dövlətimiz qalib dövlət kimi yaşayacaq.

Qeyd edək ki, Dünya Azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da, II qurultayı 2006-cı il martın 16-da, III qurultayı 2011-ci il iyulun 5-6-da, IV qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib. Növbəti - V qurultayın Şuşada təşkil olunması birliyimizin, həmrəyliyimizin böyük təntənəsi, həmçinin otuz ilə yaxın davam edən Ermənistanın işğalından sonra Şuşaya azad səfər etməyimizin, nisgilə, həsrətə birdəfəlik son qoymağımızın qürurunun və sevincinin təcəssümünə çevrildi.

### Dünya azərbaycanlıları vətənpərvərliklərini nümayiş etdirdilər

Dünya Azərbaycanlılarının V Qurultayında qalib Azərbaycan xalqının müxtəlif ölkələrdə yaşayan nümayəndələri Şuşaya toplaşdılar. Bu qurultayın məhz Şuşada düzənlənməsi böyük rəmzi məna daşıyırdı. Qeyd edək ki, bütün dünyada yaşayan azərbaycanlılar öz vətənpərvərliklərini, birliklərini, həmrəyliklərini 2020-ci ildə Vətən müharibəsinin davam etdiyi günlərdə nümayiş etdirmişdilər. Həyəcan, təşviş, ümid, arzu dolu o günlərdə hər bir azərbaycanlı bir amalda birləşməyi bacardı. Uşaqdan böyüyədək hər kəs intizarla qəhrəman Azərbaycan Ordusunun uzun illər düşmən işğalında qalan torpaqlarımızı azad etməsi xəbərini gözləyirdi. O günlərdə dünyanın bütün ölkələrində yaşayan soydaşlarımız fəallıq, birlik nümayiş etdirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Dünyanın 30-dan çox ölkəsində Azərbaycan diaspor təşkilatlarının keçirdikləri 200-dək aksiyaya 25 mindən çox azərbaycanlı, eyni zamanda dost xalqların nümayəndələri iştirak etdilər. Vətən müharibəsinin davam etdiyi günlərdə 300-ə yaxın diaspor təşkilatı ayrı-ayrı ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər etdilər. Bu birlik və bərabərliyin ən böyük müjdəsi və mükafatı isə məğlubiyyətin ağır mənəvi yükündən qurtulmağımız, Ermənistanın işğalına son qoyulması oldu.

Artıq Zəfər günü zəfər illərinə qovuşub. Hər bir azərbaycanlı qürurla bu illərin sevincini duyur, erməni vandallarının xarabalığa çevirdikləri yaşayış məskənlərimizin abad edildiyinin şahidlərinə çevrilir.

Bütün dünyada qələbələrimizi görüb şad olan dostlarımız olduğu kimi, düşmənlərimiz də var. Düşmənin arzularını gözlərində qoymağın, onları uğurlarımızla, iqtisadi, mədəni sahələrdə inkişafımızla məğlub etməyin ən gözəl yolu isə vətənimizi sevmək, onun yolunda hər zaman birlik, bərabərlik və həmrəylik nümayiş etdirməyimizdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Ali təhsilə dövlətin yüksək diqqət və qayğısı cari tədris ilinin payız semestrində Mingəçevir Dövlət Universitetinin (MDU) fəaliyyətində də bir sıra mühüm nəticələrin əldə edilməsində öz təzahürünü tapmışdır. Ötən ilin avqust ayında Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, MDU-nun Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu əldə etməsi və yeni Nizamnamənin təsdiq edilməsi universitetdə idarəetmənin səmərəliliyinin artırılmasına və mövcud imkanların daha da genişləndirilməsinə mühüm zəmin yaratmışdır.



# Yeni dövrün universitetinə çevrilmək əsas hədəfimizdir

"Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsaslanaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" müasir dövrün tələblərinə və çağırışlarına cavab verən ali təhsilin təmin edilməsi yolunda universitetlər qarşısında yeni vəzifələr qoymuşdur.

Bununla əlaqədar olaraq, orta və uzunmüddətli dövrdə MDU-da idarəetmə fəaliyyəti paytaxtın qabaqcıl universitetləri səviyyəsində keyfiyyətli ali təhsil xidmətləri göstərən, ölkəmizin və bölgənin hərtərəfli inkişafına davamlı töhfə verən, regional ekosistemin drayverinə çevrilən yeni dövrün universitetinin qurulmasına hədəflənmişdir. Bu baxımdan tələbələrin hərtərəfli inkişafı, onların layiqli vətəndaş, müasir dünyagörüşlü şəxsiyyət və rəqabətqabiliyyətli yüksəkixtisaslı kadr kimi yetişmələri, elm və innovasiya fəaliyyətlərinin inkişafı üçün bütün zəruri imkanları təqdim edən əlverişli ali təhsil mühitinin təmin edilməsi universitet idarəçiliyində prioritet əhəmiyyət kəsb etmişdir.

Qarşıda duran hədəflər tədrisin və elmi fəaliyyətin keyfiyyətinin davamlı surətdə yüksəldilməsi, yeni ixtisasların yaradılması, tərəfdaş xarici və yerli universitetlərlə əməkdaşlığın inkişafı, müvafiq dövlət qurumları və sənaye ilə işbirliyinin gücləndirilməsi, tələbələr və məzunlarla işin təkmilləşdirilməsi, akademik və inzibati heyət üzvlərinin bilik və bacarıqlarının artırılması, təşkilati strukturun müasir dövrün tələblərinə uyğunlaşdırılması, rəqəmsallaşma, infrastrukturun yenilənməsi, sosial fəaliyyətlərin genişləndirilməsi və cəmiyyətə fəal inteqrasiya vəzifələrini aktuallaşdırmışdır. Qeyd olunan istiqamətlər MDU-nun kollegial idarəetmə orqanı olan Elmi Şuranın iclaslarının gündəliklərində də öz əksini tapmışdır. Cari payız semestri ərzində 5 dəfə keçirilən MDU Elmi Şurasının iclaslarında universitetin təhsil, elm, idarəetmə, maliyyə, beynəlxalq əməkdaşlıq, sosial və digər fəaliyyətləri ilə bağlı müzakirələr aparılmış, onların strateji hədəflərə uyğun təkmilləşdirilməsi məqsədilə müvafiq qərarlar qəbul edilmişdir.

Eyni zamanda son dövrdə universitetin müasirləşməsi istiqamətində həyata keçirilən fəaliyyətlərin və qarşıya qoyulan strateji hədəflərin ümumi ideoloji konsepsiyasına uyğun olaraq MDU rebrendinq edilmişdir. Rebrendinq çərçivəsində MDU-nun yeni korporativ stili, yeni loqosu və yeni rəsmi saytı hazırlanmış, universitetin sloqanı, missiyası və gələcəyə baxışı müəyyən edilmişdir. Ölkənin dayanıqlı inkişafına töhfə verən yüksəkixtisaslı kadrların hazırlanması, nəticəyönümlü elmi tədqiqatların aparılması və cəmiyyətə faydalı sosial xidmətlərin göstərilməsi missiyasını üzərinə götürən MDU gələcəyə baxışda təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilməyi hədəfləmişdir. "Müasir təhsil, doğru seçim, uğurlu karyera" sloqanını seçməklə, MDU öz missiyasını layiqincə yerinə yetirəcəyinə əminliyini, davamlı modernləşməyə sadiqliyini, tələbə və məzunlarının hərtərəfli inkişafına dəstəyini ifadə etmişdir.

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 31 ixtisas (bakalavriat) və 15 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. Üç fakültənin və on kafedranın mövcud olduğu universitetdə ümumilikdə 3500-ə qədər tələbə və magistrant təhsil alır. 320-dən çox əməkdaşı olan MDU-da 210 professor-müəllim heyəti çalışır ki, onlardan 4 nəfərin elmlər doktoru, 62 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi, 3 nəfərin professor və 39 nəfərin isə dosent elmi adı var. Bundan əlavə, cari tədris ilindən etibarən MDU-da Türkiyənin Qazi Universitetindən dosent və ABŞ Dövlət Departamentinin Fulbright-ETA Proqramı çərçivəsində amerikalı mütəxəssis fəaliyyət göstərir.

Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə dərs prosesində müasir təhsil texnologiyalarının tətbiq edilməsi və akademik heyətin bacarıqlarının artırılması əsas prioritetlər sırasında yer almış, tədrisin tələbə mərkəzli, nəticəyönümlü və səriştə əsaslı olması istiqamətində davamlı addımlar atılmışdır. Hesabat dövründə universitetdə Energetika laboratoriyası tələbə və müəllimlərin istifadəsinə verilmişdir. Mühəndislik sahəsində bir çox fənnin tədrisinin həyata keçirildiyi sözügedən laboratoriya hazırda tələbələrin praktiki bacarıqlarının inkişafında əhəmiyyətli rol oynayır.

Tələbələrin universitet idarəçiliyində fəal iştirakının təmin edilməsi hesabat dövründə diqqət mərkəzində saxlanılmışdır. MDU-nun Elmi Şurası və fakültə elmi şuralarında, eləcə də imtahan sessiyasının obyektiv, şəffaf, ədalətli və mütəşəkkil keçirilməsi məqsədilə yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibində tələbələr fəal təmsil olunmuşlar. Bununla yanaşı, tələbə və valideynlərin istəklərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə cari payız semestrinin imtahan sessiyası ərzində universitet rektorunun iştirakı ilə "Açıq qapı" günləri keçirilmişdir. MDU-da "İmtahanlara dəstək qrupu" və "Qaynar xətt"in fəaliyyəti imtahan sessiyasında operativliyin təmin edilməsinə və yarana biləcək neqativ halların dərhal aradan qaldırılmasına xidmət edir. Eləcə də ali təhsil müəssisələrinə qəbul zamanı ixtisas seçimində abituriyentlərə ödənişsiz məlumatlandırıcı və məsləhət xidmətləri göstərmək məqsədilə MDU-da "Abituriyentlərə dəstək qrupu" yaradılmış, yeni qəbul olunmuş tələbə və magistrantların universitetlə tanışlıq prosesinə dəstək məqsədilə "Oriyentasiya Günü" keçirilmiş və onların universitet həyatına daha motivasiyalı inteqrasiyası üçün rektorla görüşləri təşkil edilmişdir.

Son dövrdə MDU-nun imicinin yüksəldilməsi və modernləşməsi istiqamətində görülən işlər öz əksini cari tədris ili üçün universitetin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulunda, eyni zamanda yüksək balla qəbul olunanların sayında artımın müşahidə edilməsində də tapmışdır. Belə ki, ötən tədris ili ilə müqayisədə 2022-2023-cü tədris ili üçün MDU-ya tələbə qəbulu 30 faiz, 500-dən yuxarı balla qəbul olunanların sayı isə 27 faiz artmışdır. Bundan əlavə, kadr potensialının, tədris-metodiki və infrastruktur təminatın məqsədyönlü və kompleks şəkildə gücləndirilməsi istiqamətində görülən işlər universitetdə əmək bazarının mövcud tələblərinə uyğun yeni ixtisasların açılmasına imkan yaratmışdır. Belə ki, cari tədris ilindən etibarən MDU-da bakalavriat səviyyəsində 5 yeni ixtisas - "Kompüter mühəndisliyi", "İnformasiya təhlükəsizliyi", "Elektrik və elektronika mühəndisliyi", "Fizika müəllimliyi", "Kimya müəllimliyi" və "Turizm bələdçiliyi", magistratura səviyyəsində isə 1 yeni ixtisaslaşma - "Tarix fənninin tədrisi metodikası və metodologiyası" üzrə kadr hazırlığına başlanılmışdır.

Elmi nəşrlərdə dərc edilən əsərlərə görə əməkdaşların mükafatlandırılması universitetdə elmi fəaliyyətin genişlənməsi, nüfuzlu yerli və beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrin sayının artması ilə nəticələnmişdir. 2022-ci il ərzində MDU əməkdaşlarının 92-si Azərbaycanda, 58-i xaricdə olmaqla, ümumilikdə 150 məqaləsi dərc olunmuşdur. O cümlədən 5 məqalə Web of Science bazasında, 3 məqalə isə Scopus bazasında indekslənən elmi nəşrlərdə çap edilmişdir.

Bu dövrdə universitet idarəçiliyində çevik, şəffaf və rəqəmsal mexanizmlərin geniş tətbiqinə xüsusi diqqət göstərilmiş və vahid elektron idarəetmə platforması olan "Elektron Universitet" modelinin MDU-da tətbiq edilməsi məqsədilə hazırlıq işlərinə başlanılmışdır. Dünya və milli ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq universitetin strukturunun təkmilləşdirilməsi məqsədilə MDU-da Rəqəmsal inkişaf və layihələrlə iş şöbəsi və Keyfiyyət Təminatı üzrə Komissiya yaradılmışdır. Bunlarla yanaşı, Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurasının üzvləri müvafiq tədbirlərə qoşulmaqla universitetin idarəçiliyinə fəal cəlb olunmuşlar.

MDU-da qarşılıqlı faydalı və strateji əhəmiyyətli əməkdaşlığın inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Müvafiq dövlət qurumları, xarici nümayəndəliklər, ictimai birliklər, sənaye müəssisələri, yerli və xarici universitetlər, regional ümumtəhsil müəssisələri ilə işbirliyi, eləcə də beynəlxalq universitet birlikləri və beynəlxalq proqramlar çərçivəsində əməkdaşlıq MDU-nun missiyasının davamlı və daha keyfiyyətli şəkildə həyata keçirilməsinin təmin edilməsinə hədəflənmişdir. Hesabat dövründə Erasmus+ proqramı çərçivəsində MDU-nun koordinatorluğu ilə hazırlanmış layihənin maliyyələşdirmə üçün qəbul edilməsi və 3 yeni layihə üzrə tərəfdaşlığa başlanılması, Beynəlxalq Universitetlər Assosiasiyasına və onun İdarə Heyətinə üzvlük, eləcə də Dünya Rektorlar Forumunda təmsilçilik regionu təmsil edən ali təhsil müəssisəsinin beynəlxalq əməkdaşlığında önəmli hadisələr kimi dəyərləndirilə bilər.

Beləliklə, qeyd edilən istiqamətlər üzrə işbirliyinin inkişaf etdirilməsi universitetdə mövcud potensialın gücləndirilməsi, idarəetmə, tədris və tədqiqat fəaliyyətlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi işinə töhfə verərək modernləşmə yolunda MDU-nun strateji hədəflərə doğru irəliləməsinə mühüm zəmin yaradır.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

Zərifə Əliyeva - 100



# Nurlu şəxsiyyət

**Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Bu il aprelin 28-də akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əlamətdar tarixlə bağlı ötən il noyabrın 3-də "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamda akademikin zəngin mənəvi irsinə layiqli qiymət verilib. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərlərinə, elmi təşəbbüslərinə, pedaqoji fəaliyyətinə, respublikamızda yüksəkixtisaslı kadrların hazırlanmasındakı xidmətlərinə xüsusi diqqət yönəlib.

Zərifə Əliyevanın fəaliyyəti geniş və zəngindir. Xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan ilk növbədə əsl ziyalı, işıqlı, nurlu şəxsiyyət idi. Sözün həqiqi mənasında bu böyük ziyalının insanlara bəxş etdiyi nur mənəvi paklığından, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından və bütövlüyündən qidalanmışdır.

## 100 illik ömür tarixi

Aradan ötən bu 100 il mənalı həyat yolu, peşə fəaliyyəti və elmi yaradıcılığı ilə mənəviyyat, kamillik, müdriklik örnəyinə çevrilmiş nurlu bir şəxsiyyətin ömür tarixidir. Belə şəxsiyyətlərimizin xatirəsini yaşatmaq, onların ömür salnaməsini yeni nəsillərə tanıtmaq çox əhəmiyyətlidir. Çünki belə insanlar nəsillərə örnəkdirlər. Onların da bu insanlardan öyrənəcəyi çox dəyərlər var. Hər bir insanın dünyaya gəldiyi zaman məkan, böyüdüyü ailə mühiti onun gələcəyində mühüm rol oynayır. Zərifə xanım Əliyeva da bu baxımdan istisna deyil.

Böyük alim 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, zəmanəsinin görkəmli ictimai-siyasi, dövlət xadimlərindən olan Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Bu ailədəki səmimiyyət, dəyərlərə yüksək ehtiram belə bir mühitdə böyüyən övladlar üçün böyük bir məktəb idi. Onlar vətəndaşlıq ruhunun daşıyıcısı olan atalarının, Azərbaycan qadını adının bütün gözəl cəhətlərini şəxsiyyətində cəmləşdirmiş anaları Leyla xanımın tərbiyəsini alırdılar.

Əziz Əliyevin evi həm də mənəviyyat məbədi idi. Onun dostluq etdiyi böyük şəxsiyyətlər, zəmanəsinin görkəmli elm, mədəniyyət, incəsənət xadimləri tez-tez bu evdə qonaq olar, dövrün mədəni inkişaf proseslərini müəyyən edən müzakirələr aparar, ali ziyalılıq dəyərlərini paylaşar, bu sağlam düşüncə mühitindən Əziz Əliyevin ailə ocağında böyüyən uşaqların da hafizələrinə işıq düşərdi.

## Göz həkimi

Zərifə xanım orta məktəbin sonuncu siniflərində oxuyarkən artıq həkimliyi seçmişdi. İkinci Dünya müharibəsinin ən qaynar vaxtları idi. Bakıdakı bir çox binanı hospitala çevirmişdilər. Bu hospitallarda cəbhə bölgəsindən gətirilmiş yaralılar müalicə olunurdu. Zərifə Əliyeva dərsdən sonra digər məktəb yoldaşları ilə evlərinin yaxınlığındakı hospitala gedər, tibbi heyətə kömək göstərməyə çalışar, yaralı hərbçilərin adından ailələrinə məktublar yazardı.

O dövrdən düşüncələrində həkimlik haqqında aydın münasibət formalaşmış, insanların həyatını xilas edən bu sənət gənc qız üçün dünyanın ən müqəddəs peşəsinə çevrilmişdi. Zərifə xanım 1942-ci ildə orta məktəbi müvəffəqiyyətlə tamamlayıb Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinin tələbəsi oldu. Fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə elə ali təhsilin ilk illərindən institutun nümunəvi tələbələrindən biri kimi tanındı. Onun maraq dairəsi təbabət elminin hüdudlarını aşırdı. Tibb elmi qədər ədəbiyyata, fəlsəfəyə, musiqiyə və başqa sahələrə də sevgisi böyük idi. Bu maraq Əziz Əliyevin ailə mühitindən gəlirdi.

İnstitutda ixtisas seçimi zamanı Zərifə Əliyeva göz həkimliyini seçdi. Bu da o dövrdə traxoma xəstəliyinin bütün dünyada və Azərbaycanda tüğyan etməsindən irəli gəlirdi. Ümumdünya Səhiyyə Təşkilatının ötən əsrin 40-cı illərinin sonlarına dair hesabatına görə, həmin dövrdə bütün dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuşdu və effektiv müalicə üsulları olmadığından onlardan 80 milyonu dünya işığına həsrət qalmışdı. Azərbaycanın çoxlu sayda göl və bataqlıqlar olan bölgələrində, o cümlədən aran zonalarında bu xəstəlik daha geniş yayılmışdı. Tibb elmi bu xəstəliklə mübarizə üçün bütün gücünü səfərbərliyə alır, traxomaya qarşı effektv vasitələrin tapılması məqsədilə tədqiqatlar genişlənirdi. Zərifə Əliyeva da insanlara maksimum faydalı olmağa çalışırdı. Ona görə də özünü oftalmologiya sahəsində sınamağa qərar vermişdi.

## Onun elmi araşdırmalarının mövzusunu həyat özü diktə edirdi

Zərifə xanım 1947-ci ildə Azərbaycan Tibb Universitetini müvəffəqiyyətlə başa vurandan sonra müvafiq ixtisas üzrə bilik və bacarıqlarını təkmilləşdirmək üçün həmin illərdə bu istiqamətdə elmi araşdırmaların mərkəzləşdiyi Moskvaya yollandı. Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçdi. Buradakı ikiillik kurs onun həkimlik və alimlik taleyində çox böyük rol oynadı. 1949-cu ildə ixtisasartırma kursunu uğurla başa vurub, peşəkar imkanlarını təkmilləşdirib Azərbaycana qayıtdı. 1949-cu ildən Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlara da başladı. O, müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olur, traxoma xəstəliyinin müalicəsinə isə xüsusi diqqət ayırırdı.

Gənc alim həkim həmkarları ilə birgə traxomanın geniş yayıldığı bölgələrə gedir, xəstələrin müalicəsi ilə məşğul olur, bu xəstəlikdən qorunmaq üçün əhali arasında maarifləndirmə işləri aparırdı. Tədqiqatçı traxoma ilə effektiv mübarizə üçün kompleks tədbirlər planı da hazırlamışdı. Bu plan xəstəliyin diaqnostikası, müalicəsi və profilaktika üsullarının tətbiqini əhatə edirdi. Gənc alim elmi tədqiqatlarını davam etdirir, traxoma bəlasını aradan qaldırmaq üçün təsirli həllər axtarırdı. Zərifə Əliyeva traxomanın müalicəsində o illərin ən güclü antibiotiklərindən sayılan "Sintomisin"dən isifadə etməklə mühüm bir yeniliyə imza atır, bununla minlərlə insanın gözünün nurunu qorumuş olur. O, əldə etdiyi elmi nəticələri 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasında ümumiləşdirib uğurla müdafiə edir. Bu elmi nailiyyətinə görə tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülür. Beləliklə, Zərifə xanımın təklif etdiyi müalicə metodunun bütün ölkə ərazisində geniş tətbiqinə başlanılır. Tibb elminin ondan sonrakı illərdə bu xəstəliyi, demək olar ki, tam məğlub edə bilməsində Zərifə Əliyevanın böyük xidmətləri var.

## İnsanlara işıq verən böyük alim

1960-1967-ci illərdə Zərifə Əliyeva Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, cərrahiyyə əməliyyatları aparır, xəstələrin müalicə və müayinəsi ilə məşğul olurdu. Eyni zamanda elmi fəaliyyətini də davam etdirir, göz xəstəlikləri sırasında xüsusi yer tutan qlaukoma xəstəliyinə qarşı effektiv həllər üzərində çalışır, tapıntılarını elmi nəşrlərdə dərc etdirirdi. Zərifə xanımın əsas fəaliyyət istiqamətlərindən biri də müxtəlif tibb müəssisələrindən təkmilləşdirmə kurslarına cəlb olunmuş dinləyici həkimlərlə pedaqoji işin aparılması idi. O, kursların fəaliyyətində yaxından iştirak edir, öz bilik və bacarıqlarını gənc həmkarlarına ötürürdü.

Zərifə xanımın 1967-ci ildən sonrakı fəaliyyəti daha çox Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrası ilə bağlıdır. Həmin il o, bu kafedranın dosenti oldu. Sonrakı dövrlərdə isə professor kafedra müdiri vəzifəsində çalışdı. 1968-ci ildən görmə orqanının patologiyası məsələləri ilə məşğul olmağa başladı. Bu mövzu o dövrdə çox az tədqiq olunmuşdu. Ümumiyyətlə, Zərifə xanımın elmi araşdırmalarına diqqət yönəltdikdə onun az araşdırılmış sahələrə daha çox maraq göstərdiyini, bu sahələrdə Zərifə Əliyevanın elmi ardıcıllarına yol açdığını görürük. Onun məşğul olduğu elmi problemləri yerində tədqiq etməsi, yalnız nəzəri məlumatlarla kifayətlənmədən bilavasitə yerlərdən özünün faktlar toplaması, təcrübələr aparması, real fakt materialları üzərində çalışması bu görkəmli alimin fəaliyyətinin diqqətçəkən məqamlarındandır. Bu da Zərifə xanımın alim kimi fədakarlığından, elmi tədqiqatlara məsuliyyətlə yanaşmasından, insanlara real fayda vermək istəyindən irəli gəlirdi.

O, elmi tədqiqat prosesində ölkənin əsas sənaye şəhərləri Bakı və Sumqayıtın bir sıra müəssisələrinə gedir, burada çalışan əməkdaşların gözlərini müalicə edir, laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Zərifə xanım genişmiqyaslı klinik və təcrübi tədqiqatları nəticəsində zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmış, beləliklə, gələcəkdə on minlərlə insanın peşəsi ilə bağlı göz xəstəliklərinə tutulması riskinin qarşısını ala bilən həllər təqdim etmişdi. "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını o, 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Bu doktorluq dissertasiyası öz dövrünə görə və sonrakı zamanlarda da həmin mövzuda fundamental tədqiqat işlərindəndir.

## "Yüksək etimad"

Zərifə xanım bacarıqlı elm təşkilatçısı kimi də nümunə yaradırdı. 1977-ci ildə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu məhz Zərifə xanım Əliyevanın təklifi və təşkilatçılığı ilə keçirilmişdi. Plenum uğurla baş tutmuş, Azərbaycanın evsahibliyi etdiyi tədbir ümumən ittifaq misqyasında müsbət mənada böyük əks-səda yaratmışdı. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda milli oftalmologiya məktəbimizin ilk tədqiqat mərkəzi kimi göz xəstəlikləri ilə bağlı xüsusi laboratoriyanın yaradılması, Bakı Məişət Kondisionerləri Zavodunda bu laboratoriyanın tədqiqat bazasının formalaşdırılması da Zərifə xanımın həmin plenumda irəli sürdüyü təklif əsasında mümkün olmuşdu. Bu laboratoriyada həm elmi tədqiqat işləri aparılır, həm də göz xəstəliklərinin müalicəsi ilə məşğul olurdular. Akademikin kəşf etdiyi görmə aparatı da göz xəstəliklərinin kompleks diaqnostikası və erkən cərrahi müalicə üsullarının tətbiqinə geniş imkanlar yaradırdı. Onun "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərləri, müəllifi olduğu 12 monoqrafiyası, hazırladığı dərslik və dərs vəsaitləri, 150-yə yaxın elmi işi, 1 ixtira və 12 səmərələşdirici təklifi dünya tibb elminə sanballı töhfələrdir.

Zərifə xanım Əliyeva elmi xidmətlərinə və pedaqoji kadrların hazırlanmasındakı fəaliyyətinə görə 1980-ci ildə Əməkdar elm xadimi fəxri adını almış, 1981-ci ildə alimin "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyası oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafata layiq görülmüşdü. 1983-cü ildə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Könül verdiyi həkimlik peşəsinə hər zaman müqəddəs dəyər kimi yanaşan Zərifə xanımın fəaliyyətinin mühüm bir istiqaməti də məhz həkimlik etikası ilə bağlı idi. Alimin qələmə aldığı "Yüksək etimad" kitabı bütün dövrlərdə əsl həkim kimi yetişmək istəyən, insanların inamını qazanmağa can atan, sənətini, "Hippokrat andı"nı uca tutan hər bir həkimin oxumalı və oxuyub əməl etməli olduğu kitabdır.

## Sülh uğrunda

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, Moskvada nəşr olunan "Vestnik oftalmoloqa" jurnalının redaksiya heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü idi. Zərifə xanım sülhü insanın missiyası sayır və deyirdi: "Elə şeylər var ki, biz onları tarixin soyuq məhkəməsinə saxlaya bilmərik, onlar haqqında indi danışmalı və qiymət verməliyik. Sülh uğrunda mübarizə bizim missiyamız, borcumuzdur. Bu həm də bütün elm və mədəniyyət xadimlərinin və ilk növbədə ziyalıların işidir. Çünki Yer üzündə sülhü qorumaq insanların firavan həyatını, tələbatını təmin etmək və onların xoşbəxt olmaq hüququnu qorumaq deməkdir. Eyni zamanda təfəkkürə və xeyirxahlığa xidmət etməkdən böyük xoşbəxtlik yoxdur".

Zərifə xanım Əliyeva bütün bu elmi-ictimai fəaliyyətləri ilə yanaşı, həm də vəfalı ömür-gün yoldaşı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən yaxın silahdaşı, Vətən üçün layiqli övladlar böyütmüş ləyaqətli Ana idi. Bu gün müstəqil dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yüksəltmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətənə sevgisi həm də Zərifə xanımdan gəlir.

"...Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

...Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur" - bu, dövlət rəhbərimizin onu böyüdüb boya-başa çatdırmış Ana haqqında fikirləridir. Bu il ömür tarixinin 100-cü zirvəsinə ucalan Zərifə xanım Əliyevanın arzuları, amalları Azərbaycan Prezidentinin Vətən üçün gördüyü işlərdə yaşayır, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yerinə yetirdiyi nəcib missiyada davam edir. Azərbaycan adına bəşəriyyətə verilən hər töhfə bizə Zərifə xanımın gülümsər çöhrəsini xatırladır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ötən il Dövlət Turizm Agentliyinin tabeliyindəki qoruqları ziyarət edənlərin sayı artıb

**Dövlət Turizm Agentliyinin (DTA) tabeliyində olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Göstəricilərə əsasən, 2022-ci il ərzində DTA-nın tabeliyindəki qoruqlara pandemiyadan əvvəlki dövrdən daha artıq sayda bilet satışı olub. Bu barədə AZƏRTAC-a Dövlət Turizm Agentliyindən bildirilib.**








"Hazırda Dövlət Turizm Agentliyinin tabeliyindəki 8 qoruqdan "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Kiş" Tarix-Memarlıq Qoruğuna giriş ödənişlidir. Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun tərkibindəki Xan sarayı və bir neçə muzeyə, həmçinin "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibindəki Hamam muzeyə və "Diri Baba" türbəsinə biletlə daxil olmaq mümkündür. Adları qeyd olunan qoruq və muzeylərə 2022-ci ildə ümumilikdə 341 253 bilet satılıb. Ziyarətçilərin 162 798 nəfəri xarici, 178 455 nəfəri yerli vətəndaş olub. Bu ziyarətçilərin 44 577 nəfəri qoruq və muzeylərə ödənişsiz daxil olub (Ödənişsiz giriş haqqı olan ziyarətçilər qrupuna məktəblilər, əlil və müharibə veteranları, qazilər, 12 yaşınadək xarici turistlər daxildir). Ümumilikdə 2022-ci il ərzində turistlərə göstərilən xidmətlər üzrə bilet satışından 1 693 164 manat vəsait əldə edilib ki, bu məbləğin də 258 279 manat təşkil edən hissəsi ƏDV kimi dövlət büdcəsinə ödənilib", - deyə məlumatda qeyd olunur.

2018-ci ildə Dövlət Turizm Agentliyi yaradıldıqdan sonrakı illərdə qurumun tabeliyinə verilən qoruqlara gələn turistlərin sayında artım müşahidə olunub. Belə ki, 2018-ci ildə "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun 25 min ziyarətçisi olubsa, 2019-cu ildə bu rəqəm üç dəfədən çox artaraq 88 minə çatıb. Ötən ilin statistikasına görə, Yanardağı 110 mindən çox turist ziyarət edib. "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun 2018-ci ildə 77 mindən çox, 2019-cu ildə 147 minə yaxın, 2022-ci ildə isə 100 minə yaxın ziyarətçisi olub. Yanardağ və Atəşgaha gələn turistlərin əksəriyyətinin hər iki qoruğa girişə imkan verən kombinə bilet aldıqlarını nəzərə alsaq, ümumilikdə 2022-ci ildə Yanardağ və Atəşgaha gələn turistlər bilet üçün 1 milyon 271 min 298 manat ödəyiblər.

Şəkidəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq qoruğunun biletlə keçid olan obyektlərində 2018-ci ildə 42 min ziyarətçi olsa da, 2019-cu ildə bu rəqəm iki dəfədən də çox artmaqla 107 mini keçib. Ötən il ərzində isə Şəkinin tarixi mərkəzini 141 mindən çox turist ziyarət edib.

2019-cu ildə sözügedən qoruqların ümumilikdə 280 618 ziyarətçisi olub, bilet satışından isə 1 milyon 410 min manat vəsait əldə olunub. 2020-ci ildə pandemiya səbəbindən qoruq və muzeylərdə uzun müddət bağlı olması səbəbindən ziyarətçi sayı azalaraq 57 min nəfər olub və həmin il bilet satışından əldə olunan gəlir cəmi 310 min manat təşkil edib. 2021-ci ildə turizmin bərpası ilə DTA tabeliyindəki qoruqların 157 minə yaxın ziyarətçisi olub və bilet satışından 400 min manata yaxın vəsait daxil olub.

Qeyd edək ki, DTA-nın tabeliyindəki qoruq və muzeylərə giriş qiymətləri yerli vətəndaşlar üçün 2 manat, tələbələr üçün 1 manat təşkil edir. Xarici vətəndaşlar üçün qiymət 4-9 manat arasında dəyişir. Yanardağ və Atəşgah qoruğuna birgə kombinə biletləri 11 manat, "Yuxarı Baş" qoruğunda yerləşən muzeylərin və abidələrin hamısına giriş birgə 5 manat (xaricilər üçün 10 manat) təşkil edir. Yanardağ və Basqal qoruqlarında 10 nəfər və daha çox turistdən ibarət qruplara 10 faiz endirim tətbiq edilir.

Xatırladaq ki, hazırda Dövlət Turizm Agentliyinin tabeliyindəki qoruqlara "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Xınalıq" Dövlət Tarix Memarlıq və Etnoqrafiya Qoruğu, "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu, "Kiş" Tarix-Memarlıq Qoruğu, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu və bu qoruğun tərkibindəki "Diri Baba" türbəsi daxildir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## AİİB ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) investisiya əməliyyatları üzrə vitse-prezidenti Konstantin Limitovski ilə görüşüb.**



İqtisadiyyat naziri Azərbaycanın AİİB ilə əməkdaşlığa önəm verdiyini, bankın "yaşıl" və dayanıqlı gələcəyin təmin olunması istiqamətində fəaliyyətini, həmçinin üzv ölkələrə güclü iqtisadiyyat qurmaqda dəstəyinin əhəmiyyətini vurğulayıb.

Dayanıqlı inkişafın təmin olunması sahəsində ölkəmizdə görülən işlər barədə məlumat verən iqtisadiyyat naziri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində davamlı iqtisadi yüksəlişə, həmçinin azad edilmiş ərazilərimizdə aparılan reinteqrasiya işlərində "yaşıl" və "ağıllı" konsepsiyaların tətbiqinə xüsusi önəm verildiyini qeyd edib. Vurğulanıb ki, Milli Prioritetlərdə müəyyən olunmuş strateji istiqamətlər üzrə həyata keçirilən 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişafa dair strategiyada da dövlət sektorunun yeni keyfiyyətə transformasiyası, ekosistemin keyfiyyətinin yaxşılaşdırılması, biznesin, insan kapitalının davamlı inkişafı, rəqəmsal iqtisadiyyatın və innovasiyaların geniş tətbiqi üçün münbit şəraitin yaradılması əsas hədəflərdəndir.

AİİB-nin investisiya əməliyyatları üzrə vitse-prezidenti Konstantin Limitovski təmsil etdiyi qurumun Asiya regionunda iqtisadi artımın stimullaşdırılması və infrastrukturun inkişafı istiqamətində həyata keçirdiyi tədbirləri diqqətə çatdırıb, bankın Azərbaycanla səmərəli əməkdaşlığını qeyd edib, tərəfdaşlığın inkişafı imkanları barədə fikirlərini bölüşüb.

Görüşdə tərəflər arasında potensial əməkdaşlığın əsas istiqamətləri, AİİB-nin Azərbaycanda gələcək fəaliyyət prioritetləri, bankın maliyyə dəstəyi ilə ölkəmizdə layihələrin həyata keçirilməsi imkanları haqqında müzakirələr aparılıb.

## İxracda qeyri-neft məhsullarının çəkisi yüksəlir

**Hər bir dövlətin ixrac potensialının yüksək olması müsbət iqtisadi göstəricilərin təzahürüdür. Xarici ticarət dinamikasının yüksək templə artması həm də ölkənin maliyyə və iqtisadi dayaqlarının möhkəm olmasını təmin edən faktorlardandır. Azərbaycanın xarici ticarətdə ili müsbət saldo ilə başa vurması da ölkəmizin iqtisadi sahədəki dinamikasının müsbət tendensiyası kimi başa düşülməlidir.**



Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsində ölkəmizin iqtisadi sahədə qazandığı uğurlar sırasında xarici ticarətdə əldə olunan nailiyyətin əhəmiyyətini də vurğulayaraq demişdir: "...Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir".

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən ilin yanvar-noyabr aylarında ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 184 dövlətindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 121 ölkəyə məhsul ixrac edilmiş, 172 ölkədən isə idxal olunmuşdur. Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla xarici ticarət dövriyyəsi 51 milyard 229,2 milyon, o cümlədən ixracın dəyəri 38 milyard 347,7 milyon, idxalın dəyəri 12 milyard 881,5 milyon dollar təşkil etmiş, nəticədə 25 milyard 466,2 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Həmin dövrdə keçən ilin eyni ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 62,7, real ifadədə 7,9, o cümlədən ixrac 11,2, idxal isə 1,2 faiz artmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olan məlumata əsasən, xarici ticarət dövriyyəsinin 91,3 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Hindistan, İsrail, Yunanıstan, Almaniya, Birləşmiş Krallıq, Xorvatiya, İspaniya, Çexiya, Portuqaliya, Gürcüstan, İndoneziya, Ukrayna, Qazaxıstan, ABŞ, Vyetnam, İsveçrə, Tunis, İran, Rumıniya, Türkmənistan və İrlandiya ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

2021-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə ötən ilin eyni dövründə bir çox məhsulun ölkəyə idxalı xeyli azalmışdır. Həmin məhsulların çeşidlərinə diqqət yetirdikdə məlum olur ki, onlar qeyri neft-qaz sektoruna aid məhsullardır. Səbəblər müxtəlif ola bilər. Məsələn, bir çox məhsula ölkə daxilində tələbatın azalmasını göstərmək olar. Sözsüz ki, əsas səbəb qeyri neft-qaz sektorunun inkişafı ilə bağlıdır. Yəni daxili istehsal artdıqca idxala olan ehtiyac azalır.

İxracın strukturuna diqqət yetirdikdə isə görürük ki, neft-qaz məhsulları ilə yanaşı, qeyri neft-qaz məhsullarının ixracının tərkibi də artmaqdadır. Hesabat dövründə ixracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, kimya sənayesi məhsullarının, plastik kütlə və ondan hazırlanan məmulatların, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və ondan hazırlanan məmulatların, şəkərin, bitki yağlarının, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil etmişdir.

Keçən ilin yanvar-noyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı 2021-ci ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 13,9, real ifadədə 4,8 faiz artaraq 2 milyard 688,4 milyon dollara bərabər olmuşdur. Bir daha qeyd edək ki, xarici ticarətdə qeyri neft-qaz məhsullarının ixracının dinamik artımı bu istiqamətdə aparılan islahatların sayəsində mümkün olmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Xarici bazarlara daxil olmağa çalışan yerli şirkətlər üçün təlim keçirilib

**Azərbaycan Mərkəzi Bankı (AMB), Bakı Fond Birjası (BFB), "CPM İnvestisiya Şirkəti" və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən xarici bazarlara daxil olmağa çalışan yerli şirkətlər üçün "Qiymətli kağızların buraxılışı, Bakı Fond Birjasında listinq və Listinq Məsləhət Proqramı" mövzularında onlayn təlim keçirilib.**

Təlimdə kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat verilib. Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

Bakı Fond Birjası əməkdaşlıq etdiyi investisiya şirkətləri və KOBİA ilə birlikdə kapital bazarı haqqında məlumatlılığın artırılması, yerli biznes mühitində qiymətli kağız buraxılışı təcrübəsinin aşılanması və fond birjasında listinqin təşviq edilməsi məqsədilə mütəmadi ödənişsiz təlimlər təşkil edir.

## Son 5 ildə 348 gənc sahibkara 66,1 milyon manat güzəştli kredit verilib

**Son 5 ildə 348 gənc sahibkara 66,1 milyon manat güzəştli kredit verilib. Bu barədə AZƏRTAC-a Sahibkarlığın İnkişafı Fondundan bildirilib.**

Qeyd edilib ki, bu kreditlər hesabına 1615 yeni iş yerinin yaradılması nəzərdə tutulub. Gənc sahibkarlar biznesini inkişaf etdirmək üçün dövlətin güzəştli maliyyə mexanizmlərindən yararlanır.

## OPEK Azərbaycanda gündəlik neft hasilatı proqnozunu artırıb

### Qaz hasilatının artırılmasını isə tələbat gündəmə gətirir

**Ötən il Azərbaycanda neft və qaz hasilatı ahəngdar şəkildə davam edib. Karbohidrogenlər eləcə də fasiləsiz ixrac olunub.**

İl ərzində 32,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft hasilatının 20,4 milyon tonu "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının payına düşüb. "Şahdəniz"dən 4,4 milyon ton kondensat çıxarılıb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 7,8 milyon ton təşkil edib.

Energetika Nazirliyi bildirir ki, bu dövrdə 26,3 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 24,9 milyon tona yaxını konsorsiumun, 1,4 milyon tonu isə SOCAR-ın payına düşür.

AÇG və "Şahdəniz" yataqları istismara başlanandan bu il yanvarın 1-dək 607 milyon tondan çox neft (kondensatla birlikdə) veriblər. AÇG-dən 567 milyon ton neft, "Şahdəniz"dən isə 40 milyon ton kondensat alınıb. Sözügedən dövrdə karbohidrogenlərin 605 milyon tondan çoxu ixrac olunub.



Yeri gəlmişkən, qeyd edək ki, ötən il ölkədə neftin emalı 6,2 milyon ton təşkil edib.

Ölkəmizdə mavi yanacaq da "Azəri-Çıraq-Günəşli"dən, "Şahdəniz"dən və SOCAR üzrə əldə olunur. Ötən il ümumi hasilat 46,7 milyard kubmetr təşkil edib. Qazın 13,4 milyard kubmetri AÇG-dən, 25,2 milyard kubmetri "Şahdəniz"dən, 8,1 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. 2021-ci ilə nisbətən 6,5 faiz, yəni 2,9 milyard kubmetr artım qeydə alınıb.

İl ərzində xaricə qaz satışı 22,3 milyard kubmetr təşkil edib. Bu da 2021-ci illə müqayisədə 18 faiz çoxdur. Göstərilən həcmin 11,4 milyard kubmetri Avropaya, 8,4 milyard kubmetri Türkiyəyə, 2,5 milyard kubmetri isə Gürcüstana göndərilib. Xatırladaq ki, qaz Gürcüstana əsasən CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə 2006-cı ildən, Türkiyəyə BTƏ (Bakı-Tbilisi-Ərzurum) xətti ilə 2007-ci ildən və TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) ilə 2018-ci ildən çatdırılır. Keçən il Türkiyəyə TANAP-la 5,6 milyard kubmetrə yaxın qaz nəql olunub. Azərbaycan qazı iki ildən çoxdur Avropaya da ixrac edilir. Bu, "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti - TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) fəaliyyətə başlaması ilə mümkün olub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" istismara veriləndən cari il yanvarın 1-dək bu yataqlardan müvafiq olaraq 203,4 milyard kubmetr və 182,8 milyard kubmetrə yaxın qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından alınan qazın 128 milyard kubmetrə yaxını ixrac olunub.

Bu il isə neftin və qazın hasilatının ötən ilə nisbətən çox olacağı gözlənilir. Ölkədə ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatının 800 min barel səviyyəsində olacağı proqnozlaşdırılır. Yəni hasilat üzrə proqnoz artırılıb. Bu barədə OPEC-in (Neft İxrac Edən Ölkələr Təşkilatı) aylıq hesabatında xəbər verilib. 2022-ci ildə bu göstərici orta hesabla 700 min barel səviyyəsində olub.

Mavi yanacağa gəldikdə isə deyə bilərik ki, Avropanın Azərbaycan qazına tələbatının artması onun həm hasilatının, həm də ixracının artırılmasını tələb edir. Prezident İlham Əliyev ixracın getdikcə artması və diversifikasiyası barədə demişdir: "Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanın quruda 26 meqavatdan çox külək və günəş, Xəzər dənizində isə 157 meqavat həcmində külək enerjisi potensialı var

**Ölkəmiz olduqca zəngin alternativ enerji potensialına malikdir. Azərbaycan günəşli ölkədir və paytaxt Bakı küləklər şəhəri kimi tanınır. Bu amillər Azərbaycanın enerji ixracını genişləndirmək imkanlarını daha da artırır.**



Energetika Nazirliyinin hesabatında Azərbaycanın quruda 26 meqavatdan çox külək və günəş, Xəzər dənizində isə 157 meqavat həcmində külək enerjisi potensialının mövcudluğu qeyd edilib. Bundan başqa, işğaldan azad edilən ərazilərdə - Qarabağda və Zəngəzurda külək, günəş və hidroenerji potensialının 10 meqavatdan çox olduğu bildirilib. Nazirliyin mütəxəssislərinin rəyinə əsasən, bərpaolunan enerjinin payı 2026-cı ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırılacaq. Ötən il Azərbaycanın enerji tarixində ilk dəfə olaraq xarici investisiya əsaslı külək və günəş elektrik stansiyalarının təməli qoyulub. Ümumi investisiya dəyəri 500 milyon dollardan çox olan 240 MVt gücündə "Xızı-Abşeron" Külək və 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik stansiyalarının inşasına başlanılıb.

Xatırladaq ki, ötən ilin dekabrında Buxarestdə Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin gücləndirilməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpa-olunan enerjinin istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoydu. Dördtərəfli hökumətlərarası saziş Rumıniya ilə Azərbaycan arasında bərpa-olunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsini nəzərdə tutur.

İmzalanma mərasimində çıxış edən Avropa Komissiyasının sədri xanım Ursula Fon der Lyayen Azərbaycanı etibarlı tərəfdaş adlandıraraq qeyd etdi ki, Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli Avropa üçün əhəmiyyətli layihədir və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. Bu faktlar onu deməyə əsas verir ki, Azərbaycan müasir dünyada ən dinamik inkişaf edən dövlətlərdən biridir. Regiondakı siyasi gərginliyə, münaqişələrə və təzyiqlərə baxmayaraq, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasətini uğurla həyata keçirir, müəllifi olduğu strateji layihə və təşəbbüsləri ardıcıl şəkildə reallaşdırır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın Avropaya təbii qaz, elektrik enerjisi və digər resursları ixrac etməsi təkcə iqtisadi məsələ deyil. Nəzərə almaq lazımdır ki, Avropa yuxarıda göstərilən beynəlxalq əhəmiyyətli layihələri reallaşdırmaq üçün Azərbaycana iri həcmdə investisiya da yatıracaq. Bu isə dövlətimizin iqtisadi inkişafına böyük təkan verməklə yanaşı, həm də siyasi dividend qazandıracaq.

## Vətəndaşlar avtosığorta üzrə şəhadətnamələri onlayn ala biləcəklər

**Vətəndaşlar İcbari Sığorta Bürosunun (İSB) rəsmi veb-səhifəsinə (https://isb.az/) daxil olmaqla, seçdiyi sığorta şirkətinin loqosunun üzərində yerləşdirilmiş "Online al" düyməsinə klik edərək sığorta şəhadətnaməsini ala bilərlər.**

İSB-dən AZƏRTAC-a bildirilib ki, şirkətlərin rəsmi veb-səhifələrində əlaqədar bölmənin axtarılmasına ehtiyac olmadan onlayn rejimdə rahatlıqla sığorta təminatının əldə edilməsi mümkün hala gətirilib. Bununla yanaşı, vətəndaşların sığorta müqaviləsini əldə etmək üçün sığorta şirkətlərinin bütün filiallarına və vasitəçilərə də müraciət etmək imkanı qalmaqdadır.

Xatırladaq ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin bağlanması ilə bağlı qanunvericiliyə əsasən, bu növ üzrə icbari sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq icazəsi olan sığorta şirkətləri avtomobillərin icbari sığorta edilməsi ilə bağlı onlara edilən müraciətlərə cavab olaraq avtomobilləri sığortalamaqdan imtina etmək hüququna malik deyillər. Belə ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun 23,3-cü maddəsinə əsasən, sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz.

# "Buta Airways" Rusiyanın məşhur kurortuna uçuşlar həyata keçirməyə başlayır




**AZAL QSC-nin tərkibinə daxil olan aşağıbüdcəli "Buta Airways" aviaşirkəti yeni Bakı-Soçi-Bakı marşrutu üzrə aviabiletlərin satışını elan edir.**

Soçi Rusiyanın Qara dəniz sahilində yerləşən məşhur kurortdur.

Qara dəniz sahilinə uçuşlar martın 18-dən etibarən həftədə iki dəfə - çərşənbə axşamı və şənbə günləri həyata keçiriləcək.

Bu istiqamət üzrə biletləri aviadaşıyıcının **www.butaairways.az** saytında ("Büdcə", "Standart" və "Super" tarifləri üzrə) əldə etmək mümkündür. Həmçinin aviabiletləri "Buta Airways" mobil tətbiqi vasitəsilə əldə etmək olar.

# "Omikron"dan daha təhlükəli

## "Kraken"in yayılma arealı genişlənir

**Dünyada pandemiya ilə bağlı son üç ildəki vəziyyət COVID-19-un hər yeni variantının əvvəlkindən daha yoluxucu olduğunu göstərdi. Dəfələrlə mutasiyaya uğrayan virusla mübarizədə peyvəndlər təsirli vasitə oldu.**



2022-ci ilin oktyabrında aşkar edilən COVID-19-un yeni alt növü olan "Kraken" dünyanın artıq 32 ölkəsində yayılıb. ABŞ, Avropa və Çində aktiv şəkildə görünən koronavirusun yeni ştamı əvvəlkilərdən yoluxuculuq qabiliyyətinin yüksək, ölüm riskinin az olması ilə fərqlənir. Mütəxəssislər bu virusun peyvənd edilənlər arasında daha az yayıldığını bildirirlər. "Kraken"in əlamətləri yüksək hərarət, titrətmə, öskürək, nəfəs almaqda çətinlik, baş, boğaz və əzələ ağrıları, burun tıxanıqlığı, dad və ya qoxu itkisidir.

### ÜST fövqəladə vəziyyət rejimini daha 3 ay uzadıb

Koronavirusun təhlükəli yoluxucu xəstəlik olaraq qaldığını bildirən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2020-ci ilin yanvarından bəri qüvvədə olan dünya səhiyyəsində fövqəladə vəziyyət rejiminin müddətini daha 3 ay uzadıb. Hazırda koronavirusla bağlı vəziyyətin bir il əvvəlkindən daha yaxşı olduğunu vurğulayan ÜST bəyan edib ki, son 8 həftədə 170 mindən çox insan COVID-19-dan dünyasını dəyişib. Bu, yalnız qeydə alınan rəqəmdir. Belə ki, Çin başda olmaqla, bəzi ölkələr real rəqəmləri açıqlamır, digərləri isə, ümumiyyətlə, virusun rəsmi statistikasını aparmırlar.

Çində COVID-19-la bağlı vəziyyət ağırlaşmaqda davam edir. Yanvar ayının ilk günlərində pandemiyadan hər gün 5000 adamın öldüyü barədə məlumatlar verilirdi. Lakin hökumət rəsmi statistikanı bildirməkdən imtina edir. Ölkədə COVID-19 izolyasiyaları hələ də aradan qaldırılmayıb. Bu təcrid siyasətinin Çinin iqtisadiyyatına mənfi təsiri gündən-günə artır.

ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus bildirir ki, hazırda qlobal şəkildə dövriyyədə olan "Omikron" yüksək yoluxuculuğa malik olsa da, demək olar ki, ağır fəsadlarla nəticələnmir. Bununla belə, o, gözlənilməz xüsusiyyətlərə malik yeni variantlara çevrilmək qabiliyyətini hələ də saxlayır.

ÜST koronavirus simptomları olan insanlara 10 gün, simptomlar olmadığı təqdirdə isə 5 gün təcrid olunmağı tövsiyə edir.

### Azərbaycanda vəziyyət stabildir

Hazırda ölkəmizdə epidemioloji vəziyyət qənaətbəxş hesab edilir. Sevindirici haldır ki, son aylarda meydana çıxan və yüksək yoluxuculuğu ilə seçilən "Omikron" ştamının alt variantı olan "Kraken" ölkəmizdə aşkarlanmayıb. Buna baxmayaraq, epidemioloji vəziyyətin stabil qalması üçün ölkəmizdə vaksinasiya prosesi bu gün də davam edirilir. Məhz uğurlu peyvəndləmə nəticəsində virusa yoluxanlar xəstəliyi yüngül keçirirlər, ölüm hallarına az rast gəlinir.

Mütəxəssislərin tövsiyələrinə görə, yoluxmaların artmaması üçün simptomlar müşahidə olunduğu təqdirdə xəstələr özlərini təcrid etməlidirlər. Hazırda COVID-19-un əlamətləri mövsümi qripə bənzədiyi üçün bəzi hallarda onları fərqləndirmək çətin olur. Bu səbəblə də xəstəlik əlamətləri müşahidə olunduğu təqdirdə həkimə müraciət etmək, PZR testi verməli mütləqdir. Hər kəsin, xüsusilə yanaşı xəstəliklərdən əziyyət çəkənlərin virusdan qorunmaq üçün gigiyena qaydalarına əməl etmələri çox vacibdir. Virus tez-tez mutasiyaya uğradığından vəziyyəti stabil saxlamaq çətindir. Ona görə də COVID-19-a tamamilə qalib gəlmək üçün diqqətli və məsuliyyətli olmaq lazımdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*







# Havanın qeyri-sabit olacağı gözlənilir

**Fevralın 3-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, axşama doğru tədricən kəsiləcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında mülayimləşəcək.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, havanın temperaturu gecə 2-4° isti, gündüz 6°-dək isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var, axşam tədricən kəsiləcək. Arabir duman olacaq, qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 0-5° isti, gündüz 5-8° isti, dağlarda gecə 7-12° şaxta, gündüz 2-7° şaxta olacaq.

Gecə və səhər dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**balansında olan "Balakən" və "Bərdə" bərə gəmilərinin MAN D2876LE301 köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**balansında olan XDND-nin "Türkan" gəmisinin S125 MB (6 bar) sement barit sisteminə quraşdırmaq üçün BOGE BS150 vintli kompressorlarının satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**gəmiləri üçün müxtəlif növ göstəricilərin (datçiklərin) satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1164.**

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri İşlər İdarəsinin sektor müdiri Vəfadar Əliyevə atası
**FARİZ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Baş nazirinin müşaviri Elman Rüstəmov Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-nin kollektivi Milli Məclisin deputatı Azər Badamova əzizi
**SOFİYA ZƏKİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və aparatın kollektivi iş yoldaşları Vüqar Heydərova atası
**VAQİF HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ASC "Xalq" Bankının rəhbərliyi və kollektivi Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) prezidenti Nərgiz Nəsrullayeva-Müdürоğluya atası
**NAMİQ NƏSRULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Mühəndislik Universitetinin rektoru professor Havar Məmmədov rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ NƏBİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Aerokosmik Agentliyinin baş direktoru professor Natiq Cavadov və agentliyin kollektivi rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası
**NƏBİ MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5019
Sifariş 252
Qiyməti 40 qəpik